EVDƏ QAL, SAĞLAM QAL!

**Donald Tramp: “Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir”**



Bax 4

**Margarita Kosta İtaliyanın Ermənistandakı keçmiş səfirini Qarabağ münaqişəsi mövzusunda susdurub**



Bax 4



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 083 (6048) 16 may 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# “Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür”

*CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib*



Bax 2

## “Donald Trampın Respublika Günü münasibətilə Azərbaycan Prezidentini ilk təbrik edən dövlət başçılarından olması təsadüfi deyil”



Prezident Donald Tramp Prezident İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə ünvanladığı təbrik məktubunda Birləşmiş Ştatların Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəklədiyini, iki ölkənin beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını...

Bax 5

## Faşizm sevgisi və faşist Ermənistanı



Bax 7

***Hər dəfə ermənilər hansısa hiyləyə əl atmaq istəyirlərsə, dərhal faş olur, özlərini düşdükləri quyunun daha da dərinliyinə sürükləyir və təkrarən rüsvay olurlar. Çünki, mövcudluqları dövründə onlar daha çox xəyanət, satqınlıq, terrorçuluq, vandallıq və ümumiyyətlə insanlığa sığmayan əməllərlə xarakterizə olunur. Bir növ sadalanan qeyri-insani bu xüsusiyyətlər xalq kimi belə özünü təsdiq edə bilməyən...***

## Qidalar nə qədər vaxta həzm olunur?



Bax 16

***Diyetoloqlar qida qəbulu ilə meyvə qəbulu arasında həmişə 2-4 saat fasilə verilməsini məsləhət görürlər. AZƏRTAC “mail.ru” saytına istinadla xəbər verir ki, burada məsələ heç də onların dada görə uyğunluğunda ...***

## Eldar İbrahimov: “Elə adamlar var ki, özlərini padşah kimi aparırlar”



“İnsanlara, əhaliyə diqqətli yanaşmaq lazımdır. Seçdiyimiz yol düzgün yoldur. Bu istiqamətdə görülən işləri müsbət qiymətləndirir və dəstəkləyirəm”. Bu sözləri SİA-ya açıqlaması Milli Məclisin İntizam Komissiyasının sədri ...

Bax 5

## “Trampın təbrik məktubu Azərbaycana olan dəstəyin göstəricisidir”



“Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrik məktubu ünvanlaması və Amerika xalqı adından salamlarını çatdırması eyni zamanda bir sıra mühüm mesajları önə çıxarıb”. SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu...

Bax 9

## Laçının işğalından 28 il ötür



Bax 11

1992-ci il mayın 17-də Ermənistan ordusu Şuşanın Turşsu kəndi və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçərək, Laçını işğal edib. İşğal 18 mayda tam başa çatıb. Düz 27 il əvvəl törədilən işğalın acı nəticələrini bu gün də yaşayırıq. Laçının işğalı damarında azərbaycanlı qanı dövr edən hər kəs üçün çox ağırdır. Rayonun işğalını reallaşdıran...

**“Radikal düşərgə təmsilçilərinin söhbətini ən yaxşı halda “videoqeybət” adlandırmaq olar”**



Bax 12

**Eldəniz Quliyev istefa verdi və məlum oldu ki...**



Bax 14

**Diqqət: Kondisionerlərdə koronavirus təhlükəsi!**



Bax 16

# "Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür"

*CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib*



***Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentini salamlayan CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer dedi:***

-Sabahınız xeyir, cənab Prezident.

Prezident İlham Əliyev: Sizi görməkdən çox şadam, sabahınız xeyir. Amma sizin üçün axşamınız xeyir olsun. Sizdə indi axşamdır.

Kelli Kramer: Bəli. Sizi görməkdən olduqca məmnunam. Sizi sonuncu dəfə Davosda görmüşdüm. Amma üstündən, görünür, son hadisələrdən sonra çox vaxt keçir.

Prezident İlham Əliyev: Bəli, sizi yenidən görməyimə çox şadam və çox yaxşıdır ki, bizim bir-birimizlə danışmaq və Davosda keçirdiyimiz görüşdən sonra görülmüş işləri nəzərdən keçirmək, eləcə də növbəti addımları planlaşdırmaq üçün bu fürsətimiz var.

Kelli Kramer: Elədir ki, var. Hesab edirəm ki, bir çox maraqlı hadisələr baş verməkdədir. Mən, sadəcə, bizimlə görüşdüyünüzə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. İcazənizlə, başqa bir məsələni də deyərdim. Əslində, yaxşı və xoş təəssürat bağışlayan haldır ki, COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səylərinizi nümayiş etdirdiniz. Çox böyük təəssürat bağışladı. Bir daha bu işlərə rəhbərlik etdiyinizə görə Sizə minnətdarıq.

Onu da söyləməliyəm ki, CISCO-nun teleiştirak texnologiyasından istifadəni görmək də çox yaxşı hal oldu. Bir sözlə, əgər bununla Sizə kömək edə bildiksə, bu, çox xoşdur. Sizi görmək fürsətini də dəyərləndiririk. Buna görə minnətdarıq.

Prezident İlham Əliyev: Sağ olun.

Sonra CISCO şirkətinin vitse-prezidenti Qay Ditrix çıxış edib:

-Sizi görməyimə çox məmnunam. Bu gün bizə vaxt ayırdığınıza görə olduqca minnətdaram. Mən üç sahəni əhatə edəcəyəm. Müzakirə etmək istədiyimiz üç sahə belədir: "Smart ölkə", təhsil və kibertəhlükəsizlik. Onların hamısı Sizin əsas prioritetlərinizlə bağlıdır. Siz onları təxminən iki il əvvəl bizim qarşımızda təsvir etdiniz. Biz ildə iki dəfə Bakıda, yaxud Davosda keçirdiyimiz görüşlərdə Sizə yenilikləri çatdırırdıq.

"Ağıllı şəhər" layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz, əslində, "Ağıllı avtovağzal" ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq formatında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı.

Qay Ditrix ölkəmizdə icra olunan birgə layihələrdən danışdı, bu layihələrin çox gözəl nəticələr verdiyini bildirdi. CISCO şirkətinin vitse-prezidenti Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi şirkətlə "Quantelo" şitkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışdı, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd etdi və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsi işinə xidmət edəcəyini bildirdi. Qay Ditrix "Ağıllı məktəblər" layihəsinə toxunaraq dedi:

-Cənab Prezident, ümumi məqsədimiz bir-biri ilə bağlantısı olan "Ağıllı məktəblər" və təhsil proqramlarını yaratmaqdır ki, bu sahədə qlobal liderlik qazanılsın. Sizin qeyd etdiyiniz miqyas və öhdəlik tam uyğundur. Biz bunun öhdəsindən gələ və təhsilin səviyyəsini qaldıra bilərik. Həmin bir-biri ilə bağlantısı olan məktəblər vasitəsilə Sizin dünyadakı statusunuz qalxacaq.

Prezident İlham Əliyev: Çox sağ olun. Siz haqlı olaraq qeyd etdiyiniz kimi, biz iki mühüm tədbirin təşkilində Sizin əla avadanlığınızı istifadə etdik. Texniki nöqteyi-nəzərdən deyə bilərəm ki, hər iki tədbir çox gözəl baş tutdu, çünki bu iş asan deyildi. Əgər türkdilli dövlətlərin Sammiti cəmi bir neçə dövləti əhatə edirdisə, ikinci tədbirə gəldikdə, iştirakçılar qırxdan artıq idi. Orada, həmçinin beynəlxalq təşkilatlar var idi. Yeri gəlmişkən, ilk dəfə idi ki, Qoşulmama Hərəkatı və Avropa İttifaqı eyni tədbirdə iştirak edirdi. Əvvəllər, bu, heç zaman baş verməmişdir. Azərbaycan həmin iki mühüm beynəlxalq tədbiri başladı. Təbii ki, onların hər ikisi koronavirusla və beynəlxalq səviyyədə onunla mübarizə ilə əlaqəli idi. Sizə deyə bilərəm ki, texniki dəstək əla idi. Mən bu fürsətə görə minnətdaram. Hazırda bu imkanlardan sizinlə söhbət etmək üçün istifadə edirik. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, mənim sizin ələ sisteminiz vasitəsilə həmkarlarımızla, yəni, dövlət başçıları ilə artıq bir neçə söhbətim olub. Lakin bu, ilk dəfədir ki, mən şirkətin rəhbərləri ilə bu cür söhbət edirəm. Fikrimcə, xoş təsadüfdür ki, bu, CISCO-dur.

Bu, ölkələrimiz arasında çox sıx və dəyərdim ki, strateji tərəfdaşlığı nümayiş etdirir. İlk bu cür söhbət apardığım şirkət Birləşmiş Ştatları təmsil edən şirkətdir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, dünən mən Prezident Trampdan məktub almışam. O, məni və Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə təbrik edib. Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda, o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür.

Qeyd etdiyiniz məsələlərə gəldikdə, biz onları əvvəllər müzakirə etmişik. Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonradan qayıdacağam. Lakin ilk olaraq mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı.

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev Ə.V.Nağıyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən General-leytenant Əfqan Vəli oğlu Nağıyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 51-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# "Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür"

*CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib*

Əvvəli-Səh-4

Bundan sonra, qarşımızda tam mənzərə aydınlaşacaq. Atacağımız addımların planı hazır olacaq və yekun nəticə çıxacaq və bu nəticəyə nail olmaq üçün hansı növ ehtiyatların toplanmasına ehtiyac duyulduğunu da biləcəyik. Hazırkı vəziyyətdə "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq. Koronavirusla bağlı işlərin gedişini, onun necə olacağını hələ görməliyik. Bu günə qədər vəziyyət nəzarət altındadır. Çox az sayda ölənlər var və ciddi məhdudlaşdırıcı tədbirlər sayəsində yoluxmuş insanların sayı da nisbətən aşağıdır. Lakin hazırda biz dünyanın demək olar ki, bütün ölkələri kimi artıq açılış prosesindəyik. Buna görə məsafədən təhsil imkanları həqiqətən çox vacibdir. Əgər bizdə bütün məktəblərimizin tam bağlantısı olan sistem olarsa onda bu, çox böyük imkana çevriləcək. Siz dediyiniz kimi, bu halda Azərbaycan aparıcı ölkələrdən biri olacaq.

Kibertəhlükəsizliklə bağlı məsələyə gəldikdə, biz bunu, həmçinin əvvəllər müzakirə etmişik. Əvvəlcə müzakirə etdiyimiz kimi və mən də qeyd etdiyim kimi, həmin yeni islahatlar gündəliyində əsas məqsəd ümumi daxili məhsulu artırmaq, iş yerlərini açmaq və bunun üçün innovativ texnologiyalardan istifadə etməkdən ibarətdir.

Hazırkı koronavirus şəraitində, əvvəlcə qeyd etdiyim kimi, bu məsələlər daha da vacibdir. Çünki demək olar ki, bütün ölkələrin ümumi daxili məhsulu zərbə altındadır. Bununla belə, bu ilin dörd ayında bizdə ümumi daxili məhsulun artımı 0.2 faiz səviyyəsində olub. Lakin anlayırıq ki, növbəti ay çox güman bu göstərici də aşağı düşəcək. Sənaye sektorunda vəziyyət daha yaxşıdır. Bizim qeyri-enerji sənayesində 13 faizdən artıq artım olub. Lakin, əlbəttə, koronavirus ümumi daxili məhsula və iş yerlərinə zərbə vurur, çünki biz, təbii ki, işsizliyin artmasını hesablayacağıq. Amma onun qarşısını almaq üçün 2 milyard avro həcmində çox ciddi iqtisadi və sosial paketi işə salmışıq. İqtisadiyyatın hazırda tam bağlandığı sahələrdə işlərini itirmiş insanları qorumaq üçün bunu edirik. Məsələn, turizm. O, indi sıfır səviyyəsindədir. Bir sözlə, bu məsələlər hazırda daha çox əhəmiyyət kəsb edir. Hesab edirəm ki, biz diqqətimizi onun üzərinə yönəldəyəcəyik.

İndicə danışdığımız məsələlərdən başqa, fikrimcə, biz digər sahələrdə də işləyə bilərik. Bilirəm ki, siz kənd təsərrüfatının rəqəmsallaşdırılması ilə bağlı artıq təmasdasınız. Bu sektor hazırkı vəziyyətdə neft qiymətlərinin tənəzzülü ilə aparıcı sektorlardan biri olacaq. Buna görə kənd təsərrüfatı məşğulluq, ərzaq təhlükəsizliyi və ixrac deməkdir. Gözəçarpan nəticələrə nail olmaq üçün bizim su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemimiz olmalıdır. Elə bu yaxınlarda mən Baş Nazirin müavininin rəhbərliyi altında xüsusi dövlət komissiyasının yaradılması ilə bağlı Sərəncam imzalamışam. Onlar artıq işə başlayıblar. Bir çox nazirlər həmin komissiyanın üzvləridir, çünki bizim çoxlu itkilərimiz olub. Ötən il isə bizdə çox ciddi quraqlıq oldu. Bu il, həmçinin gözlənilir. Düzdür, daha yüngül olsa da, amma yenə də proqnozlaşdırılmayan haldır. Hava şəraiti gözlənilməz şəkildə dəyişir.

Beləliklə, su ehtiyatlarımızın düzgün qiymətləndirilməsi, layihənin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi qarşıdan gələn illərdə bizim üçün ən vacib məsələdir.

Azərbaycanda infrastruktur layihələrinin əksəriyyətinin artıq tamamlandığını nəzərə alsaq, bu, infrastruktur layihələri sırasında bir nömrəli layihə olacaqdır ki, onun icrası nəticəsində su ehtiyatlarına nəzarət, idarəedilmə və bərabər bölgü təmin olunacaq. Çünki burada narahatlıq doğuran məsələlərdən biri odur ki, bəzən su ehtiyatlarının paylanılması zamanı yerli icra orqanları bunu qeyri-bərabər şəkildə edirlər və nəticədə müəyyən şirkətlər qrupu əsassız üstünlük əldə edir. Bu ədalətsizlik isə öz növbəsində, ciddi çətinliklər yaradır. Bu səbəbdən hesab edirəm ki, bu məsələ də bizim gündəliyimizə əlavə edilə bilər və beləliklə, biz gələcəkdə hansı işlərin görüləcəyi ilə bağlı geniş mənzərəyə malik olacağıq.

**Qay Ditrix:** Çox gözəl. Cənab Prezident, biz çağırışları sevirik. Su ehtiyatlarının idarə edilməsi dünyanın hər yerində çağırışdır. Biz bu sahədə bir sıra layihə və texnologiyalara malikik. Bu, təkcə su ehtiyatlarının idarə edilməsi və nəzarət deyil. Buraya müvafiq sahədə qanunvericilik də daxildir. Çünki dünyanın elə bölgələri var ki, orada infrastruktur olduqca inkişaf etmiş səviyyədədir, lakin orada boru kəmərlərinin zədələnməsi nəticəsində böyük su itkisi baş verir. Mən iki layihəni nəzərdə tuturam ki, biz pilot layihə çərçivəsində orada sensor texnologiyasının tətbiqi və su ehtiyatları sahəsində qanunvericiliklə bağlı məlumatın toplanılması ilə məşğuluq. Biz, əlbəttə, Sizinlə də bu sahədə çalışa bilərik.

Daha bir mövzu "Ağıllı kənd təsərrüfatı"dır. Siz bu sahədə olduqca irəlidəsiniz və Sizin kənd təsərrüfatının inkişafı ilə bağlı baxışınızı reallaşdırmaq üçün müvafiq texnologiyalar artıq mövcuddur.

Azərbaycan Prezidentinin köməkçisi Şahmar Mövsümov "Ağıllı şəhər" layihəsinə toxundu və bu istiqamətdə görülən işlərdən danışdı:

-Çox təşəkkür edirəm cənab Prezident. CISCO şirkəti ilə çox yaxşı əməkdaşlığımız var. Biz irəli sürülmüş və tərəfinizdən qəbul edilmiş "Smart ölkə" ideyası üzərində çalışacağıq. Düşünürəm ki, bu istiqamətdə "yol xəritəsi"nin, büdcənin və bütün vacib göstəricilərin olması çox önəmlidir. Ümid edirəm ki, "Ağıllı şəhər" layihəsinin icrası mərhələsi yaxınlaşanda biz artıq bu koronavirus məsələsini geridə qoyaraq normal həyata dönəcəyik. Təşəkkür edirəm.

Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə CISCO şirkəti ilə əməkdaşlığa toxundu və indiyədək həyata keçirilən layihələrdən danışaraq dedi:

-Cənab Prezident, hörmətli həmkarlar. CISCO şirkəti ilə əməkdaşlığımız koronavirus pandemiyası dövründə də uğurla davam etmişdir. CISCO şirkətinin bulud platforması və şəbəkə texnologiyalarından istifadə etməklə videokonfrans şəklində mühüm tədbirlər təşkil edilmişdir. Bununla yanaşı, müvafiq texnologiyalar vasitəsilə tərəfimizdən dövlət qurumları üçün virtual görüşlərin təşkili və onlayn xidmətlər təklif edilir. Hazırda biz 8 rəqəmsal prioritet üzərində çalışırıq.

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, bugünkü müzakirəmiz olduqca vacib və ümidverici idi. Bu təşəbbüslərin tərəfinizdən dəstəklənməsinə görə sizə bir daha təşəkkür edirəm. Biz ölkəni müasirləşdirmək arzusunda olduğumuzla bağlı çoxlu müzakirələr aparmışıq və hər kəs anlayır ki, müasir texnologiyalar olmadan bu, mümkün deyil. Bu səbəbdən, zənnimcə, bu gün müzakirə etdiklərimiz icra olunacaq, çünki əvvəl planlaşdırdığımız bütün təşəbbüslər artıq həyata keçirilib.

Su ehtiyatlarının idarə edilməsi məsələsinə qayıdaraq, siz su itkisi məsələsini düzgün qeyd etdiniz və bizdə də belə problem var. Bəzi hallarda Azərbaycanda su itkisi 40 və hətta 50 faiz təşkil edir. Biz yalnız su itirmirik, biz həm də torpağa ziyan vururuq, çünki torpaq yuyulur və daha sonra kənd təsərrüfatı üçün yararsız olur. Düşünürəm ki, səylərimizi birləşdirərək və sizin təcrübənizdən faydalanaraq biz məhsuldarlığı artırmaqla böyük uğura nail ola bilərik.

Bizim münbit torpaq ehtiyatımız məhduddur. Kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin etmək və ixrac qabiliyyətimizi gücləndirmək üçün biz məhsuldarlığı artırmalıyıq. Bu isə yalnız müasir texnologiyaların tətbiqi nəticəsində mümkündür.

Sonra CISCO şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Spərrou çıxış edib:

-Cənab Prezident, həmkarlarımın burada dediklərinə mən də qoşuluram. CISCO şirkətinin Azərbaycan Respublikası ilə əməkdaşlığı fantastik olmuşdur və biz bu əməkdaşlığın davamlı olmasını arzulayırıq.

Daha Sonra CISCO-nun Azərbaycan üzrə regional direktoru **Vladimir Orlov** çıxış edib:

-İstərdik ki, Beynəlxalq Avtovağzal Kompleksi regionda icra etdiyimiz bütün pilot layihələr sırasında parlayan bir ulduz olsun. İstərdik ki, şəhərdə tətbiq oluna biləcək bütün texnologiyalar burada istifadə edilsin və biz daha sonra bu layihəni digər dövlətlərə də təklif edəcəyik. "Smart ölkə" layihəsi uzunmüddətli perspektivdə ölkə üçün faydalı olacaq. Burada söhbət yalnız vahid ölkə idarə lövhəsi layihəsindən getmir. Buraya səhiyyə, neft-qaz və digər arzuladığınız sahələr də əlavə edilə bilər. Kibertəhlükəsizlik sahəsində biz "Azərenerji" ilə əməkdaşlıq edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Hesab edirəm ki, yeni əməkdaşlıq formatımızın strukturu rəsmi müəyyən edildikdən sonra bizim qısamüddətli icra planımız olmalıdır, çünki bizim bu məsələlərə ciddi ehtiyacımız var. Müasir dünyada təhlükəsizlik bir nömrəli məsələdir və buraya enerji təhlükəsizliyi də daxildir. Bu səbəbdən kiberhücumlara qarşı müdafiənin bizim üçün əhəmiyyəti daha da artacaq. Bu yaxınlarda, pandemiya vaxtı mən "Azərenerji"nin əməliyyat mərkəzinin açılışında iştirak etdim və burada SCADA sistemi daxil olmaqla bütün əməliyyat sistemləri çalışır. Bizim enerji infrastrukturunun müasirləşdirilməsi ilə bağlı böyük planımız var. Mövcud elektrik stansiyalarında yenidənqurma və təmir işləri aparmaqla biz elektrik enerjisi istehsalında ən azı 600 meqavatlıq artım əldə edə bilmişik. Yəni, yalnız resursların optimallaşdırılması sayəsində biz səmərəliliyi artıraraq böyük generasiya gücü əldə etmişik. Beləliklə, bu, əlbəttə, bizim üçün prioritet təşkil edən məsələ olacaq. Səhiyyəyə gəldikdə, hər kəsə aydın oldu ki, koronavirusla uğurlu mübarizədə bu, mühüm amildir. Bütün məhdudlaşdırıcı və təşkilati tədbirlərlə yanaşı, burada həlledici rolu xəstələri müalicə edən həkimlər oynayır. Bu səbəbdən, çox qısa müddət ərzində bizim səhiyyə sistemimiz restrukturizasiya olundu. Biz ən yaxşı xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına verdik. Bu gün 20-dən artıq xəstəxana istifadə edilir. Deyə bilərəm ki, bəzi ölkələrdə ölüm hallarının yüksək səviyyədə olmasının səbəbi xəstəxanalarda çarpayı qıtlığı ilə əlaqəlidir. Onlar fiziki olaraq bütün xəstələri qəbul edə bilmir. Koronavirusun ikinci dalğası baş verdiyi halda Azərbaycanda kifayət qədər əlavə çarpayı mövcuddur. Beləliklə, səhiyyə sisteminin müasirləşdirilməsi heç vaxt olmadığı qədər əhəmiyyətlidir, çünki koronavirusun nə vaxta qədər yayılacağını heç kəs bilmir.

CISCO-nun Ukrayna üzrə regional direktoru **Oleq Bodnar** kibertəhlükəsizlik sahəsində əməkdaşlıqdan danışdı:

-Su itkisi məsələsinə gəldikdə, bu, maraqlı mövzudur və bu sahədə regionda bizim hazırda həyata keçirdiyimiz layihə yoxdur. Bu baxımdan, Avropa və Amerikada olan təcrübəni Azərbaycana gətirmək çox yaxşı olardı. Sizinlə çalışmaq fürsətinə görə təşəkkür edirəm.

**Xanım Kelli Kramer:**

-CISCO heyəti və Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Cənab Prezident, Sizin kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Şadam ki, CISCO bu sahədə Sizinlə əməkdaşlıq edir və hesab edirəm ki, qeyd etdiyimiz məsələlərin icrasını sürətləndirə bilərik. Bu əməkdaşlığın davamlı olmasını arzulayıram. Siz təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdənsiniz və bu işdə öndə getdiyinizə görə Sizə təşəkkür edirəm. Düşünürəm ki, Siz bu tərəfdaşlığı yaratmaqla ölkəniz haqqında da çox şey öyrənə bilərik.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm. Əməkdaşlığa və dəstəyinizə görə sizə minnətdaram. Əminəm ki, bizim strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var. Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübümüz var. Artıq qeyd etdiyim kimi, burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür. Bizim baxışlarımız tam üst-üstə düşür və potensialımızı səfərbər etməklə biz nisbətən qısa müddət ərzində çox işlər görə bilərik. Bu isə bizim Azərbaycanın müasirləşdirilməsi baxışımıza tam uyğun olacaq. Koronavirus pandemiyası başa çatdıqdan sonra sizi Bakıda görməyə ümid edirəm. Xatırlayıram ki, sizi buraya dəvəm etmişəm və beləliklə, müzakirəmizi regional formatda davam etdirə bilərik.

**Xanım Kelli Kramer:**

-Əlbəttə. Biz bu qorxunc pandemiyaya qədər artıq hər bir şeyi planlaşdırmışdıq və vəziyyət yaxşıladıqdan sonra mütləq səfər edəcəyik. Hər şeyə çox görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizə ən xoş arzularımı çatdırıram. Bu müzakirələrə görə sağ olun.

*"Hesab edirəm ki, bugünkü müzakirəmiz olduqca vacib və ümidverici idi. Bu təşəbbüslərin tərəfinizdən dəstəklənməsinə görə sizə bir daha təşəkkür edirəm. Biz ölkəni müasirləşdirmək arzusunda olduğumuzla bağlı çoxlu müzakirələr aparmışıq və hər kəs anlayır ki, müasir texnologiyalar olmadan bu, mümkün deyil."*

## Donald Tramp: "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir"



Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrik məktubu ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, Prezident Donald Tramp məktubunda 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidentinə və xalqına Amerika xalqı adından səmimi salamlarını və təbriklərini çatdırır.

Məktubda deyilir: "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik.

Xahiş edirəm 28 May - Respublika Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz".

## Mübariz Qurbanlı: "Problemli ailələrdə böyüyən uşaqlar cəmiyyət üçün çətinliklər yaradır"



Problemli ailələrdə böyüyən uşaqlar gələcəkdə cəmiyyət üçün də müəyyən çətinliklər yaradır. Burada narkomaniya və cinayətkarlıq kimi fəsadlar özünü göstərir. Trend-in məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Ailənin möhkəm təməllər üzərində qurulmasını vacib sayan M.Qurbanlı qeyd edib ki, gələcəkdə ailə institutunun dağılacağı barədə də fikirlər müzakirə edilir: "Biz bəzi ölkələrdə hətta nikahın aradan götürüldüyünü, başqa formalı ailələrin qurulduğunu görürük. Ailə institutunu mütləq qoruyub saxlamaq lazımdır". M.Qurbanlı əlavə edib ki, bu gün Azərbaycan dövləti tərəfindən ailələrə hər cür dəstək göstərilir.

## Sevinc Fətəliyeva: "Avropa İttifaqı Şurasının qərarı Azərbaycanın növbəti diplomatik qələbəsidir"



"May ayının 11-də Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı yekun qərarı böyük əhəmiyyət kəsb edir. Bu sənəd dövlət və milli maraqlarımıza cavab verir". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, Avropa İttifaqı Şurasının təsdiqlədiyi bu sənəd Aİ-nin Şərq Tərəfdaşlığı siyasətinin prioritetlərini müəyyənləşdirir. Aİ üzv ölkələrlə münasibətlərini məhz bu sənəddə yer alan prinsiplər əsasında davam etdirəcək. Onun sözlərinə görə, bu qərarın 2-ci bəndində Şərq Tərəfdaşlığının siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsipləri əks olunur: "Belə ki, Aİ Şurası Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan Şərq Tərəfdaşlığının strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edir. Eyni zamanda, Aİ Şurası Şərq Tərəfdaşlığı məkanının fəaliyyətinin əsaslarını müəyyən edən ortaq öhdəliklər sırasında "Helsinki Yekun Aktının və ATƏT-in Paris Nizamnaməsinin prinsiplərində də qeyd olunduğu kimi, ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara, həmçinin fundamental dəyərlərə, azlıqlara mənsub şəxslərin hüquqları daxil olmaqla, bütün şəxslərin insan hüquqlarına və fundamental azadlıqlarına hörmət, demokratiya, qanunun aliliyi, yaxşı idarəçilik, gender bərabərliyi, davamlı inkişaf və bazar iqtisadiyyatına dair" Aİ-nin ortaq öhdəliklərini təsbit edir.

Təbii ki, bu amil işğalçı Ermənistanın mövqeyinə ziddir. Çünki hər zaman Ermənistan ərazi bütövlüyü məsələsini aqressiya ilə qarşılayır və işğalçı siyasətini davam etdirməyə çalışır".

Millət vəkili qeyd edib ki, Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycanın torpaqlarının bir hissəsini hələ də işğal altında saxlayır: "Aİ Şurasının qərarında ərazi bütövlüyü məsələsinin təsbit olunması Ermənistanın işğalçı mövqeyinə ciddi zərbə vurur. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyətidir. Bütövlükdə, bu fakt Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu xarici siyasətin əyani nümunəsi, eləcə də ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir. Beləliklə, Azərbaycanın hücum diplomatiyası növbəti dəfə işğalçı Ermənistana ciddi zərbə vurdu".

## Marqarita Kosta İtaliyanın Ermənistandakı keçmiş səfirini Qarabağ münaqişəsi mövzusunda susdurub

***İtaliya mətbuatında bu ölkənin Azərbaycandakı sabiq səfiri, Azərbaycanın Genuya şəhərindəki fəxri konsulu Marqarita Kosta ilə İtaliyanın Ermənistandakı sabiq səfiri, İtaliya-Ermənistan Ticarət və Sənaye Assosiasiyasının fəxri sədri Bruno Skapini arasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mübahisə baş verib.***



AZƏRTAC xəbər verir ki, italyan jurnalist Domeniko Letizianın "Un Mondo d'Italiani" onlayn qəzetində Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"in beynəlxalq ictimaiyyət tərəfindən pislənməsi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri, Azərbaycanın münaqişənin nizamlanmasına dair beynəlxalq sənədlərə əsaslanan haqlı mövqeyi və bu xüsusda, Xarici İşlər naziri Elmar Məmmədyarovun fikirlərinin geniş yer aldığı "Dağlıq Qarabağda seçkilər: Azərbaycan Ermənistanı küncə sıxışdırır" başlıqlı məqaləsi İtaliyanın Ermənistandakı sabiq səfiri, İtaliya-Ermənistan Ticarət və Sənaye Assosiasiyasının fəxri sədri Bruno Skapininin hiddətinə səbəb olub. Bruno Skapini qəzetin redaksiyasına göndərdiyi məktubunda italyan jurnalisti fikirlərinə görə tənqid edib, münaqişə ilə bağlı erməni tərəfinin iddialarını dəstəkləyən, tarixi və hüquqi faktları təhrif edərək ölkəmizə münasibətdə qərəzli fikirlərlə çıxış edib.

Buna cavab olaraq, İtaliyanın Azərbaycanda sabiq səfiri, Genuya şəhərində Azərbaycanın fəxri konsulu Marqarita Kostanın qəzetin redaksiyasına göndərdiyi məktub qəzetin saytında dərc olunub. Məktubunda xanım Kosta jurnalist Domeniko Letizianın fikirlərini müdafiə etdiyini və onları tam şəkildə bölüşdüyünü bildirib. O, Bruno Skapiniyə səslənərək, onun tanımadığı, bəlkə də heç zaman səfər etmədiyi bir ölkəni tənqid etməsinin və hansı tarix kitablarını jurnalistə oxumağı məsləhət bilməsinin təəccüb doğurduğunu deyib, eləcə də qarşı tərəfin iddialarını tarixi və hüquqi faktlarla alt-üst edib. Bruno Skapininin ərazinin "tarixən Artsax" adlandırılması ilə bağlı fikrinə münasibət bildirən Marqarita Kosta bu sözün də ermənilərə heç bir aidiyyətinin olmadığını, türkcə izah olunduğu halda bu sözün nə qədim, nə də müasir erməni dilində heç bir məna vermədiyini qeyd edib. "Artsax" sözünün qədim türk tayfası olan sakların adı ilə bağlı olduğunu və "igid sak", "ər sak", "sak kişisi" mənalarını verdiyini, bu adın eramızdan əvvəl II yüzillikdən etibarən istifadə edilməyə başlandığını, sonradan Qarabağ toponiminin istifadə edildiyini deyib. Marqarita Kosta Dağlıq Qarabağ ərazisinin tarixi Azərbaycan torpağı olan Qarabağın dağlıq hissəsi olduğunu deyib. Qarabağ sözünün mənasını izah edən diplomat qədim dövrlərdən başlayaraq Rusiya imperiyası tərəfindən işğalına qədər bu ərazinin sonuncusu Qarabağ Xanlığı olmaqla müxtəlif Azərbaycan dövlətlərinə məxsus olduğunu vurğulayıb.

Bruno Skapininin Sovet İttifaqı dövründə Dağlıq Qarabağın hüquqi statusu və bu problemə münasibətdə öz müqəddəratını təyinetmə hüququnun tətbiqi ilə bağlı səhti və qərəzli fikirlərinə Marqarita Kosta hüquqi nöqteyi-nəzərdən geniş izahat verib. Dağlıq Qarabağın sovetlər dövründə Azərbaycan SSR-nin tərkibində muxtar vilayət statusuna malik olduğunu, SSRİ daxilində müttəfiq respublikaların sərhədlərinin dəyişdirilmə qaydalarının SSRİ və müttəfiq respublikaların konstitusiyalarında təsbit edildiyini, müttəfiq respublikanın ərazisinin onun razılığı olmadan dəyişdirilməsinin mümkün olmadığını, müttəfiq respublikalar arasında sərhədlərin müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin mərkəzi orqanlarının müvafiq təsdiqi nəticəsində mümkün ola bildiyini, Dağlıq Qarabağ Muxtar Vilayətinə (DQMV) münasibətdə isə bunun baş vermədiyini bildirib. SSRİ-nin dağılmasından sonra uti possidetis juris beynəlxalq hüquq doktrinasının yeni müstəqil dövlətlərin sərhədlərinin milli, regional və beynəlxalq legitimliyinin əsasını təşkil etdiyini, bu doktrinaya əsasən, Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədlərinin beynəlxalq sərhədlər olaraq tanındığını bildirib. Marqarita Kosta öz müqəddəratını təyinetmə prinsipinin hər hansı bir dövlətin tərkibindən ayrılmağa haqq qazandıran hüquq kimi təfsir edilə bilməyəcəyini, öz müqəddəratını təyinetmə prinsipini "əsas gətirərək" müstəqil Azərbaycanın tərkibindən ayrılmağın beynəlxalq hüququn hamılıqla qəbul edilmiş dövlətlərin ərazi bütövlüyü və digər müvafiq prinsiplərinin pozulması demək olduğunu qeyd edib. Marqarita Kosta münaqişədən əvvəl Dağlıq Qarabağda erməni və Azərbaycan icmalarından ibarət əhalinin yaşadığını, lakin Ermənistan ordusunun həmin ərazidən azərbaycanlıları tam şəkildə qovduğunu bildirib. Azərbaycanlıların Dağlıq Qarabağa qayıtmasından sonra Azərbaycan və erməni icmalarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış hüdudları çərçivəsində öz müqəddəratını təyinetmə hüququndan tam faydalanma haqqına sahib olduqlarını vurğulayıb.

Bruno Skapininin Xocalı qətliamını, Ermənistan tərəfindən hərbi yolla işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan bütün azərbaycanlıların qovulmasını unutduğunu bildirən Marqarita Kosta 750 min azərbaycanlı məcburi köçkünün öz torpaqlarından və evlərindən qovulması faciəsinin canlı şahidi olduğunu, bu insanlar üçün ENİ şirkəti tərəfindən 2003-cü ildə tikilmiş evlərdən ibarət qəsəbənin açılışında iştirak etdiyini deyib. Marqarita Kosta Bakının tam mərkəzində yerləşən erməni kilsəsinə heç bir zərər vurulmadığı halda, işğal olunmuş ərazilərdə Azərbaycanın tarixi abidələrinin dağıdıldığını da diqqətə çatdırıb.

Qafqazı anlamaq üçün "Əli və Nino" kitabını oxumağı məsləhət görən italyan diplomat yazısını bu fikirlərlə tamamlayıb: "Fürsətdən istifadə edərək həmkarım səfir Skapinini Azərbaycana səfərə dəvət edirəm və onu bu gözəl ölkəyə səfərdə məmnuniyyətlə müşayiət də edərəm."

Məqalələr ilə aşağıdakı keçidlərlə tanış olmaq mümkündür:

https://www.unmondoditaliani.com/elezioni-a-nagorno-karabakh/

https://www.unmondoditaliani.com/nagorno-karabakh-guerra-epistolare-lambasciatore-ditalia-in-azerbaigian-costa-vs-lambasciatore-in-armenia-scapini/

# ABŞ-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir

*Donald Tramp: "Biz Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik"*

***Bu gün beynəlxalq birliyin ən fəal üzvlərindən birinə çevrilən Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Etiraf etmək lazımdır ki, ABŞ planetimizin əsas güc mərkəzlərindən biridir və yeni dünya düzəninin qurulmasında bu ölkənin kifayət qədər böyük rolu var. Bu mənada Azərbaycanla ABŞ arasındakı münasibətlər xüsusi əhəmiyyət kəsb edir.***



Siyasi, iqtisadi, sosial və humanitar sahələrdə keyfiyyətcə yeni xarakter alan və beynəlxalq münasibətlər sistemində güclü siyasi arxitekturaya çevrilən Azərbaycan-ABŞ əlaqələri pozitiv şaxə alaraq daha dərin məna və məzmun kəsb etməkdədir. Hər iki ölkənin formalaşdırdığı geniş və güclü əməkdaşlıq platforması regionda dinamikliyi və uzunömürlü humanitar gələcək üçün siyasi hərarəti ilə diqqəti cəlb edir. Münasibətlərin dərinləşməsinə hər il bir çox iqtisadi komponentlərin əlavə olunması ABŞ-Azərbaycan əməkdaşlığına impuls verir, yeni seqmentlər qatır.

### Azərbaycan Amerika ilə münasibətləri səmimi dostluq münasibətlərinə, qarşılıqlı maraqlara söykənərək inkişaf edir

Və bu gün ABŞ Prezidenti Donald Trampın məktubunda ölkələrarası güclü iqtisadi-siyasi dialoqun əməkdaşlığa böyük töhfə verməsinə diqqət çəkilir və dövlətimizin ABŞ və dünya dövlətləri üçün etibarlı tərəfdaş olması vurğulanır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik.

Azərbaycan Respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən biri olan ABŞ-la münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Belə ki, ölkələrimiz arasında enerji, nəqliyyat, infrastrukturlar, kommunikasiya və digər sahələrdə güclü təmaslar mövcuddur. Azərbaycanın Amerika ilə münasibətləri son illərdə strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib. Xəzər hövzəsinin enerji təhlükəsizliyi ABŞ-ın xarici siyasətində prioritetlərdən olduğu üçün Azərbaycanın başlatdığı Qərbyönümlü enerji siyasəti Vaşinqtonun maraqlarına uyğundur və ölkəmizin atdığı qətiyyətli enerji siyasəti ABŞ-Azərbaycan münasibətlərinin inkişafında təkanverici faktora çevrilib.

Həmçinin, məktubunda qeyd olunur ki, ABŞ hökumətinin mövqeyi bundan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk Qrupu çərçivəsində çoxtərəfli beynəlxalq sülh səyləri ilə həll edilməlidir. Bu, açıq şəkildə Azərbaycanın ərazi bütövlüyü məsələsində və Dağlıq Qarabağ münaqişəsinin həllində Amerikanın mövqeyini aydın əks etdirir: "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik".

Göründüyü kimi, hər iki ölkə demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsi, insan hüquqlarına hörmət edilməsi kimi məsələlərdə əməkdaşlığın vacibliyinin şərt olduğunu bildirib və bu istiqamətdə əməkdaşlıq nümayiş etdirib. Bu gün aydındır ki, Cənubi Qafqaz bölgəsinin inkişafına, dövlətlərarası münasibətlərin daha yüksək səviyyədə qurulmasına, o cümlədən, dünyaya inteqrasiyanın daha yüksək sürətlə həyata keçirilməsinə və sülhün təminatına ən böyük maneə məhz Ermənistanın işğalçı siyasətidir. Azərbaycan torpaqlarını işğal altında saxlayan və artıq uzun illərdir ki, qeyri-konstruktiv mövqe nümayiş etdirməklə Ermənistan özünü beynəlxalq layihələrdən kənarda saxlayıb və regionun ümumi inkişaf tempindən dəfələrlə geridə qalıb. Münaqişənin tənzimlənməsində vasitəçi olan ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi ABŞ regionda sülhün bərqərarı istiqamətində fəaliyyət nümayiş etdirir.

Həmçinin, digər bir məqam isə, ölkələrarası iqtisadi və geniş hüquqi islahatlar sahəsində də sıx əməkdaşlıq əlaqələrin olmaksıdır. Son illərdə iki ölkə arasında siyasi, ticari-iqtisadi və strateji sahələrlə bərabər, həmçinin enerji, nəqliyyat, humanitar, mədəni, elm, təhsil, informasiya texnologiyaları kimi sahələrdə qarşılıqlı əməkdaşlıq davamlı olaraq inkişaf edir. Prezident İlham Əliyevin ABŞ-a səfərləri zamanı apardığı səmərəli danışıqlar və imzalanmış bir sıra mühüm rəsmi sənədlər ölkələrimiz arasındakı münasibətləri yeni, əsl tərəfdaşlıq səviyyəsinə yüksəldib.

ABŞ Azərbaycanın strateji tərəfdaşı olmaqla yanaşı, tərəflər arasında bir çox istiqamətləri əhatə edən yüksək səviyyəli münasibətlər mövcuddur. Tərəflər arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İstər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edərək getdikcə öz əhatə dairəsini genişləndirməkdədir. Azərbaycan Birləşmiş Ştatlarla geniş iqtisadi əməkdaşlıq əlaqələri qurub. Bu əməkdaşlığın əsas istiqamətlərini isə Azərbaycanda neft və qaz sektorunun inkişafı, yeni boru kəmərlərinin tikintisi və istismarı, Şərq-Qərb dəhlizi boyu infrastruktur layihələrinin həyata keçirilməsi, qeyri-neft sektoru sahəsində qarşılıqlı ticarətin genişləndirilməsi və s. təşkil edir. İki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinin göstəricilərindən biri olaraq ticarət dövriyyəsinin həcmi də ildən-ilə artmaqdadır.

Bütün bu müsbət meyillər bir daha onu göstərir ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlanması bir daha ABŞ və Azərbaycan aorasında olan münasibətlərin bundan sonrakı mərhələdə də bütün sahələr üzrə inkişaf edəcək. Beləliklə, bütün bu isti sünasibət bir daha onu təsdiq edir ki, ABŞ-Azərbaycan münasibətlər müttəfiqlik və əməkdaşlıq səviyyəsində bundan sonra da davam edəcək.

***R.HÜSEYNOVA***

# "Donald Trampın Respublika Günü münasibətilə Azərbaycan Prezidentini ilk təbrik edən dövlət başçılarından olması təsadüfi deyil"

***Prezident Donald Tramp Prezident İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə ünvanladığı təbrik məktubunda Birləşmiş Ştatların Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəklədiyini, iki ölkənin beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq etdiyini vurğulayıb.***

ABŞ Prezidentinin məktubunu AZƏRTAC-a şərh edən Milli Məclisin Beynəlxalq münasibətlər və Parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov Azərbaycan-Amerika münasibətlərinin həmişə yüksək səviyyədə olduğunu bildirib.

Səməd Seyidov deyib: "Bildiyiniz kimi, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri Amerika Birləşmiş Ştatlarıdır. Bu səbəbdən də Donald Trampın 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidentini ilk təbrik edən dövlət başçılarından olması heç də təsadüfi deyil. Məktubda yer alan üç əsas fikri xüsusi qeyd etmək istərdim. Birincisi, ABŞ-ın Azərbaycanın suverenliyini və müstəqilliyini tanıyaraq güclü şəkildə dəstəkləməsi fikridir. Bu, bir daha dünyanın aparıcı ölkəsi olan ABŞ tərəfindən Azərbaycanın ərazi bütövlüyünə, onun beynəlxalq qanun tərəfindən tanınmış sərhədlərinə göstərilən yüksək səviyyəli bir hörmətdir. Bu, Dağlıq Qarabağ bölgəsinin və 7 ətraf rayonunun erməni işğalı altında olan, 1 milyona yaxın qaçqın və məcburi köçkünün olduğu Azərbaycan üçün çox vacib məqamdır.

İkincisi, Amerika Birləşmiş Ştatlarının Azərbaycan ilə iqtisadi münasibətlərinin, enerji layihələrinin xüsusilə önə çəkilərək yüksək səviyyədə qiymətləndirilməsi çox vacib bir məsələdir. Bu sahələrdə Azərbaycan ilə 30 ildən çox əməkdaşlıq edən ABŞ-ın ölkəmizin Avropa və dünya üçün enerji sahəsində gördüyü işləri yüksək səviyyədə qiymətləndirməsi özü-özlüyündə böyük əhəmiyyət kəsb edir. Burada xüsusilə bir məqama da diqqət yetirmək lazımdır ki, bu müddət ərzində həmin layihələrdən istifadə edərək, Azərbaycan xalqının rifahı naminə görülən bütün işlər Amerika tərəfindən həm təsdiqlənir, həm də bəyənilir. Azərbaycan Respublikasının apardığı daxili və xarici siyasət dünyanın ən böyük ölkəsi tərəfindən xüsusi rəğbətlə qarşılanmışdır. Azərbaycanın bu çətin pandemiya dövründə insanlara yardım istiqamətində gördüyü işlər də qeyd olunmuşdur.



Nəhayət, üçüncü məsələ, ABŞ Minsk qrupunun həmsədridir və həmsədr kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsində maraqlıdır. Məktubda bu danışıqların məhz Minsk qrupu formatında aparılması, bu istiqamətdə səylərin göstərilməsi bizim üçün çox əhəmiyyətli və vacibdir. Ümumiyyətlə, qeyd etməliyəm ki, son zamanlar Azərbaycanın milli maraqlarını əks etdirən məsələlər, yəni, ərazi bütövlüyünün dəstəklənməsi, danışıqların mövcud formatda aparılması, beynəlxalq qanunun regionumuzda bərpası dünyanın aparıcı gücləri tərəfindən öz təsdiqini tapır. Bir neçə gün əvvəl Avropa İttifaqının qərarı, bu günlərdə ABŞ prezidentinin məktubu buna əyani sübutdur".

# Xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qismi yumşaldılır

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılmasına qərar verilib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.



Məlumatda bildirilir ki, mövcud sanitar-epidemioloji vəziyyət, aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə:

* yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;

* bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülür;

* restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);

Qeyd edək ki, restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bu qaydalara riayət edilməsi ictimai iaşə obyektlərinin rəhbər şəxsləri və əməkdaşlarının, eyni zamanda xidmətlərdən istifadə edən müştərilərin birbaşa öhdəliyidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Eyni zamanda 18 may 2020-ci il saat 00:00-dan bütün ölkə üzrə:

X muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur;

X 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülür. Bununla belə, 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risk qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

Hazırda xüsusi karantin rejimi müddətində ölkə üzrə aşağıdakı məhdudiyyətlər qüvvədə qalır:

* yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması;

* xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayonuna, eləcə də Gəncə və Lənkəran şəhərlərinə giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;

* bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;

* Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması;

* ASAN Xidmət və "DOST" xidmət mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;

* dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;

* toy məclislərinin təşkilinin qadağan olunması;

* bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərin keçirilməsinin dayandırılması;

* tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;

* ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;

* əyləncə məkanları, o cümlədən uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;

* muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektləri, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;

* nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"ların fəaliyyətinin dayandırılması;

* ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;

* Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;

* tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;

* idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);

* massaj və hamam xidmətlərinin göstərilməsi;

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Bir daha vurğulayırıq ki, COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Bu baxımdan COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

# Eldar İbrahimov: "Elə adamlar var ki, özlərini padşah kimi aparırlar"



"İnsanlara, əhaliyə diqqətli yanaşmaq lazımdır. Seçdiyimiz yol düzgün yoldur. Bu istiqamətdə görülən işləri müsbət qiymətləndirir və dəstəkləyirəm". Bu sözləri SİA-ya açıqlaması Milli Məclisin İntizam Komissiyasının sədri deputat, Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov ölkədə rüşvətxorluq və korrupsiyaya qarşı aparılan tədbirlərdən danışarkən deyib.

Millət vəkili hazırda icra hakimiyyətlərindən tutmuş nazirliklərdə və digər qurumlarda aparılan monitorinqləri yüksək qiymətləndirib və bu işlərin labüdlüyünü də vurğulayıb: "Cənab Prezident İlham Əliyevin göstərişi ilə icra hakimiyyətlərindən, nazirliklərdən tutmuş və digər qurumlarda rüşvətxorluğa və korrupsiyaya qarşı aparılan mübarizəni çox yüksək qiymətləndirirəm və bildirmək istəyirəm ki, bu belə də olmalıdır. Seçdiyimiz yol düzgün yoldur və bu istiqamətdə görülən işləri müsbət qiymətləndirir, dəstəkləyirəm. Bütün insanlara, əhaliyə kömək etmək hər birimizin borcudur. Hər bir məmurun təmsil etdiyi qurum çərçivəsində əhaliyə dəstək verməsi, onların problemlərinə diqqət ayırması, onlara kömək etməsi və düzgün istiqamətləndirməsi vacibdir.

Rayon icra başçıları, təbii ki, bunu hamıya şamil etmirəm, elə adamlar var ki, özlərini padşah kimi aparırlar. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, hər bir məmur insanların qulluğunda durmalıdır, onlara kömək etməlidir və əl tutmalıdır. Çox təəssüflər olsun ki, bunu nəzərə almayanlar da nəticəsini gördülər. Məsələ ondadır ki, digər məmurlar bundan nəticə çıxartmalıdırlar. Belə davam etməməlidir. İnsanlara, əhaliyə diqqətli yanaşmaq lazımdır".

Eldar İbrahimov qeyd edib ki, Prezident İlham Əliyev hər bir icra başçısını qəbul edərkən ilk növbədə ondan işini şəffaf şəkildə həyata keçirməsini tələb edir: "Prezident dəfələrlə icra başçılarını qəbul edərkən bildirib ki, vəzifəni təmiz və şəffaf şəkildə həyata keçirmək lazımdır. Bu prinsipə əsasən fəaliyyət göstərilməlidir. Bir vətəndaş kimi Prezident İlham Əliyevə təşəkkür edirəm ki, insanlara, əhaliyə bu cür diqqət və qayğı göstərir və əhalini incidən insanlar da cəzasını çəkirlər".

*Nigar Məmmədova*

# Rauf Əliyev: "Dövlətimiz koronavirusla mübarizədə prioritetlərini düzgün müəyyən edib"



"Bu gün dünyada elə bir dövlət yoxdur ki, pandemiyanın doğurduğu çətinliklər qarşısında qalmasın. Bildiyiniz ki, pandemiya proqnozlaşdırılan, planlaşdırılan bir problem deyildi ki, hökumət əvvəldən buna hazırlaşsın. Ancaq Azərbaycan dövləti koronavirusla mübarizədə prioritetlərini düzgün müəyyən edib. Bu gün dövlətimiz əsas gücünü vətəndaşın yaşamaq hüququna təhdid yaradan koronavirus infeksiyası ilə mübarizəyə yönəldib. Dövlət başçısının özünün də qeyd etdiyi kimi, "əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı." Dövlətin burada əsas məqsədi odur ki, vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.

Millət vəkilinin sözlərinə görə, dünya təcrübəsi də göstərir ki, yoluxma sürəti olduqca yüksək olan bu virus pandemiyası ilə mübarizənin effektli nəticəsi önləyici, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından çox asılıdır. Cənab Prezidentin tapşırığı ilə ölkəmizin bütün resursları səfərbər olunub və koronavirus epidemiyası ilə ardıcıl, sistemli, çoxşaxəli mübarizə aparılır. Sərhədlərin bağlanması, xaricdə olan 15 mindən çox vətəndaşımızın ölkəyə gətirilməsinin və karantin rejiminə keçirilməsinin təmin edilməsi, müayinə test və laboratoriya ləvazimatlarının, eləcə də müalicə vasitələrinin alınıb gətirilməsi, Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil olunması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, koronavirus infeksiyasının mənfi təsirlərinin azaldılması məqsədi ilə dövlət büdcəsindən başlanğıc olaraq 1 milyard manat vəsaitin hökumətə ayrılması, iki həftəlik sərt karantin rejiminə keçilməsi və s. kimi tədbirlər Azərbaycan dövlətinin bu ümumbəşəri bəla ilə mübarizədə nə qədər güclü və əzmkar olmasının, dövlət başçısının siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir.

"Azərbaycan Respublikasında koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq mənim deputat seçildiyim 13 saylı Xəzər-Pirallahı seçki dairəsinə aid olan Xəzər və Pirallahı rayonlarının İcra hakimiyyətləri tərəfindən qabaqlayıcı tədbirlər həyata keçirilir. Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti , Xəzər və Pirallahı rayonlarının Mənzil Kommunal Təsərrüfatı Birlikləri tərəfindən xüsusi texniki vasitələrlə bu rayonların bütün qəsəbələrində , küçələrdə, yollarda, parklarda, yaşayış binalarının həyətlərində və girişlərində dizinfeksiya işləri aparılır. Eyni zamanda, mütəmadi olaraq rayonların ərazilərindəki məişət tullantıları konteynerlərində və meydançalarında, məhəllələrdəki idman-əyləncə qurğularında, yeraltı piyada keçidlərində yol kənarlarında və səkilərdə, dayanacaqlarda və ticarət obyektlərinin ətrafında da dizinfeksiya işləri aparılır. "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən layihə çərçivəsində Xəzər və Pirallahı Rayon İcra Hakimiyyətləri və YAP-nın Xəzər və Pirallahı Rayon təşkilatları tərəfindən Xəzər və Pirallahı rayonlarında yaşayan şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, 65 yaşdan yuxarı olan vətəndaşlarımıza və digər imkansız ailələrə ərzaq məhsullarından ibarət yardımlar paylanmışdır. Rayon sakinləri bu xeyirxah aksiyaya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Hər bir vətəndaşımız Prezident İlham Əliyevin çağırışına ciddi şəkildə əməl etməlidir" "Əməl olunmalıdır ki, hökumətimizin göstərdiyi səylər öz nəticəsini versin, koronavirus bəlasından tezliklə xilas ola biləк. Çünki üzləşdiyimiz sınaqdan birliyimiz və həmrəyliyimizlə xilas ola bilərik"-deyə, deputat qeyd edib. yap.org.az

# Faşizm sevgisi və faşist Ermənistanı

***Hər dəfə ermənilər hansısa hiyləyə əl atmaq istəyirlərsə, dərhal faş olur, özlərini düşdükləri quyunun daha da dərinliyinə sürükləyir və təkrarən rüsvay olurlar. Çünki, mövcudluqları dövründə onlar daha çox xəyanət, satqınlıq, terrorçuluq, vandallıq və ümumiyyətlə insanlığa sığmayan əməllərlə xarakterizə olunur. Bir növ sadalanan qeyri-insani bu xüsusiyyətlər xalq kimi belə özünü təsdiq edə bilməyən bu etnos üçün səciyyəvidir və hər addımda, tarixin hər səhifəsi araşdırıldıqda bu rüsvayçı mövqeləri özünün bir daha təsdiqini tapır. Son günlər erməni baş naziri Nikol Paşinyanın babası Nikolay Paşinyanın da belə xislətlilərdən olduğu təkcə erməni mətbuatının deyil, bütün dünya, ələlxüsus faşizmlə üz-üzə qalan, bəlkə də 75 il bundan qabaq olum-qalım sualı qarşısında olan Rusiyanın mətbuatının da gündəminə, müzakirə mövzusuna çevrilib.***



Bir neçə gün əvvəl Ermənistanın baş naziri babasına görə qürurlanmaq üçün sosial şəbəkədə, daha dəqiq desək, öz Facebook səhifəsində bir status paylaşdısa da, qeyd etdiyimiz kimi, yenə də həmişə olduğu kimi, təkcə özünü yox, ümumilikdə erməni toplumunu faş etmiş oldu. Çünki, qısa bir müddət ərzində onun nasistlərin ortağı, faşistlərə xidmət etdiyi, xain olduğu, satıldığı, satqınlıq etdiyi ortaya çıxdı.













Sosial şəbəkələrin bir çox erməni istifadəçisi kimi, Ermənistanın baş naziri Nikol Paşinyan da Böyük Qələbənin 75 illiyi münasibətilə babasının şəklini yayımlamaqla ola bilsin ruslar qarşısında bir "xal" qazanmaq niyyəti güdürdü. Amma iş tamamilə tərsinə oldu və qalmaqal da elə bununla başladı. Paşinyan öz Facebook səhifəsində babasının şəklini yükləyib, sonra da "vətən üçün ölənlərə əbədi ehtiram" yazmaqla, bəlkə də hansısa "divident" həvəsinə düşmüşdü. Lakin, heç də belə olmadı və babasının da heykəlini ucaltdığı dırnaqarası qəhrəmanlardan olduğu tez bir zamanda üzə çıxdı.

Rusiyaya məxsus mətbuat səhifələri də yazır ki, Nikol Paşinyanın babası barədə məlumatlar onun yazdıqlarını təkzib edir. İnfo24.ru saytında qeyd olunur ki, Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə Böyük Vətən Müharibəsində şəhid olanlar haqqında məlumat toplamaq üçün yaradılan ümumiləşdirilmiş Memorial məlumat bankının saytında Nikola Vartanoviç Pashinyan haqqında məlumatlar var. Rusiya Federasiyası Müdafiə Nazirliyinin məlumat bazasının materiallarından belə nəticə çıxır ki, Paşinyanın babası əsir düşmüş, "düşmənlə əməkdaşlıq etmiş" və Ukraynanın qərbində, Zviakeldə (Zvyaqel, indiki Novoqrad-Volınski) bir xain kimi öldürülüb. Bundan əlavə, baba Paşinyanın SS-də xidmət etdiyini təsdiqləyən sənədin fotokopiyası Rusiya mediasında, o cümlədən ermənilərə məxsus kütləvi informasiya vasitələrində də yayımlanıb. Alman mühasibatlığının sənədi hər iki ölkənin mediasında işıqlandırılıb. Sənəddə erməni baş nazirin babası Legioner Nikolay Vartanoviç Pashinyan barədə yazılır ki, o 1913-cü ildə Ermənistan SSR-də Yenokavan kəndində anadan olub və 1943-cü ildə vəfat edib. Bu sənəd jurnalistlər tərəfindən tərcümə edilib.

Mətbuat səhifələrində yayımlanan məlumatlara əsasən bəlli olur ki, müharibə zamanı baba Paşinyanın bir müddət itkin düşdüyü bildirilib. Lakin tez bir zamanda onun düşmən tərəfinə keçdiyi, mövqeyini dəyişdiyi, faşistlərlə əməkdaşlıq etdiyi məlum olub. Məlum olub ki, Ermənistanın baş nazirinin babası Qaregin Njdenin rəhbərlik etdiyi SS legionunda xidmət edib, yəni Nasist Almaniyası üçün döyüşüb.

Qaregin Njdenin də kimliyi artıq bütün dünyaya bəllidir. Nikol Paşinyanın və onun hakimiyyət komandasının, bütövlükdə Ermənistanın heykəlini ucaltdığı bu adam, Qaregin Ter-Harutyunyan (Njde) - erməni hərbi-siyasi xadimidir və 1942-ci ildə Nasist hərbi administrasiyasının təşəbbüsü ilə Berlində yaradılan Ermənistan Milli Şurasının yeddi üzvündən biri olub. Bəli, Berlində yaradılan Ermənistan Milli Şurasının. Deməli, təkcə Njde yox, ümumilikdə erməni satqınları o zaman 15 respublikanın ümumi bir vətəni olan SSRİ-yə xəyanət edərək, Ermənistan Milli Şurasında birləşmişdilər. Araşdırılan və ortaya çıxan sənədlərə görə, Erməni Milli Şurası bir dəfə Sovet Ermənistanında Alman koloniyası yaratmaq təklifi ilə alman nazir Alfred Rosenberqə də müraciət edib. Njde hətta, Almaniyaya görə ölənlərin Ermənistan uğrunda öldüklərini belə deməkdən çəkinməyib. O, təxribat fəaliyyəti ilə çoxsaylı qurbanlara səbəb olmuş adamdır. Müharibə bitdikdən sonra vətən xaini olduğuna görə həbs olunan Njde 25 il həbs cəzasına məhkum edilib və həbsdə ikən bir vətən xaini kimi ölüb, baxmayaraq ki, Ermənistanda onun heykəli ucalır.





Ölkə başçısı, Cənab Prezident İlham Əliyev Böyük Qələbənin 75 illik yubileyini qeyd etməyə hazırlaşan MDB ölkələrinin zirvə toplantısında Njdenin kimliyini açıq-aşkar ortaya qoydu və ermənilərin, başda elə baş nazir Paşinyan olmaqla, Ermənistan hakimiyyətinin faşizmə xidmət edən, satqının, xainin, terrorçunun heykəlini ucaltmasına haqlı olaraq iradını bildirdi. Azərbaycan Prezidenti nasistliyin hörmətlə yad edilməsinin yolverilməzliyi məsələsini qaldırdı və Paşinyanın Njde ilə bağlı dediklərini nümunə kimi də göstərdi. Xatırlayaq ki, Ermənistanın baş naziri Qaregin Njdenin hərəkətlərini dəfələrlə əsaslandırır, ona haqq qazandırmağa çalışırdı. Məhz buna görə də ölkə başçımız haqlı olaraq həmin zirvə görüşündə qeyd edirdi ki, Böyük Qələbə ilə əlaqədar bayram hamı üçün deyil. Bəli, ən azından bu ermənilərin bayramı deyil. Çünki, onlar faşizmə xidmət etdikləri halda, faşizmi, terroru müdafiə və təbliğ etdikləri halda faşizm üzərindəki qələbə onların necə bayramı ola bilər? İndi ermənilərin faşizm üzərində qələbəni qeyd etməyə nəinki mənəvi haqları yoxdur, bu qələbə günü əslində onların məğlubiyyət günü sayılır.

Hazırda ermənilər Ermənistan dövləti hələ də faşizm ideyalarını, terrorçuluğu təbliğ edir, terrorçunun, faşistin heykəlini qoruyur və ehtiramla yad edir. Eyni zamanda, törətdikləri terrorçuluqla, vəhşiliklə, vandallığa görə utanmaq əvəzinə, qürür hissi belə keçirirlər. Bu terrorçu ölkənin baş naziri, özü də ali dəyərlərdən dəm vuraraq, rəngli inqilablar sayəsində hakimiyyəti zəbt edən rəhbəri belə erməni terrorçularının silahsız, dinc əhaliyə silahlı hücum etməklə qarət və zəbt etdikləri Şuşaya məhz qələbə günü səfər edirsə, bu ölkəyə faşist Ermənistanı adından başqa ad yaraşmır.

***İnam Hacıyev***

# Könüllülük ümummilli hərəkata çevrilib

***Dövlətimizin başçısı İlham Əliyev daim bəyan edir ki, islahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. İslahatları aparmaqla ölkəmiz güclənir və gələcək dayanıqlı inkişafı təmin edilir. Tərəqqi islahatlarsız mümkün deyil. Bu inkişaf, tərəqqi, islahatlar ölkəmizin bütün sferalarını əhatə edir. Bunu şərtləndirən amil təbii ki, dövlətimizin başçısı tərəfindən dövrün, zamanın tələblərinə uyğun qarşıya yeni-yeni vəzifələrin qoyulmasıdır. Bütün dövr üçün öz aktuallığını qoruyan, dəyişməyən tezis isə Azərbaycanın gələcəyinin gənclərə məxsus olmasıdır. Çünki hər bir dövlətin gələcəyi yetişməkdə olan gənclərdən, onların fiziki və mənəvi sağamlığından, xalqına, Vətəninə bağlılığından, dövlət maraqlarını hər şeydən üstün tutmasından asılıdır.***

Gənclərin potensial imkanlarının ortaya qoyulmasına, ictimai-siyasi fəallıqlarının artırılmasına, dövlət idarəçiliyində irəli çəkilmələrinə geniş imkanlar açan Dövlət proqramları icra edilir, müxtəlif layihələr həyata keçirilir. Dövlətimizin başçısı İlham Əliyevin bu sahəyə diqqəti özünü 2007-ci ili "Gənclər ili", 2020-ci ili isə "Könüllülər ili" elan etməsində daha qabarıq şəkildə göstərir. Ölkəmizdə könüllülük hərəkatının geniş vüsət alması gənclərin malik olduqları potensial imkanlarından daha səmərəli istifadə etmələrini şərtləndirir. Məhz bu amillər əsas götürülərək pandemiyanın bütün dünyanı cənginə aldığı bugünkü şəraitdə ölkəmizdə könüllülük əlillərə, kimsəsizlərə, aztəminatlı ailələrə, qocalara, qaçqın və məcburi köçkünlərə, ehtiyacı olan digər kateqoriyadan olan vətəndaşlara

kömək edilməsi, insanpərvərliyin, mərhəmətin, bir sözlə, xalqımıza xas olan keyfiyyətlərin təbliği, hüquqi və mədəni maarifləndirmə, sağlam həyat tərzinin təbliği kimi istiqamətlər üzrə həyata keçirilir. Bu gün hansı sahəyə diqqət yetirsək könüllülərin fəaliyyətini görərik. Məhz bu fəaliyyəti nəzərə alaraq, eyni zamanda, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edildi. Sənəddə də qeyd olunduğu kimi, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Artıq Azərbaycanda könüllülük bir çox fəaliyyət sferalarına nüfuz etməklə ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsini, ictimai həyatın müxtəlif sahələrini, cəmiyyətimizin bütün təbəqələrini əhatə edib, gənclərimizin həyat tərzinə çevrilib.

Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlayıb. O vaxta qədər könüllülər hərəkatı yox idi. Bu gün minlərlə könüllü ölkəmizin müxtəlif sahələrində çalışır, dövlətə xeyir gətirir. Bu, gənclərimizin istedadını, biliklərini aşkara çıxarmaqla yanaşı, kadr hazırlığı üçün də çox önəmlidir. "ASAN xidmət"lərdə təlim keçmiş, yaxud da ki, işləmiş gənclərimiz artıq həyata da vəsiqə alır, bilikli kadrlar kimi onlara inam artır, onları işə götürənlər əmin olurlar ki, dürüstlük, keyfiyyət, biliklər və mədəni xidmət olacaq. Bir sözlə, bilikli, savadlı, Vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurlarının təminatçısıdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verirlər. Ölkəmizdə "Evrovision" mahnı müsabiqəsi, ilk Avropa Oyunları, Formula 1 yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində könüllülərimizin rolu inkaredilməzdir.

Bu gün də, yeni, dünyanı bürüyən pandemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir zamanda könüllülərin fəallığı diqqətdən kənarda qalmır. Pandemiyanın insanların sağlamlığına, hər bir ölkənin iqtisadiyyatına böyük zərbələr vurduğu göz önündədir. Bu belə öncə hər kəsdən birlik, həmrəylik çağırışlarına dəstək olmağı tələb etdi. Buna görə də özünütəcrid qaydaları daha da aktuallaşdı, evdə qalıb sağlamlığımıza,

böyüklərimizə, ətrafımızdakı insanlara, doğmalarımıza dəstək olmaq günümüzün əsas tələbinə çevrildi. Tətbiq olunan karantin qaydalarında böyüklərimizə hörmətdən irəli gələn yaşı 65-dən yuxarı vətəndaşların evdə olmasına duyulan ehtiyac da könüllülərimizin fəaliyyətinə işıq saldı. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə yanaşı, könüllülərimiz də yaşı 65-dən yuxarı olan tənha yaşlılara kömək olmağı, onlara sosial xidmət göstərməyi, qayğıları çəkməyi özlərinin vətəndaşlıq borcu hesab edərək bu missiyanı yerinə yetirməkdən xoş əhval- ruhiyyə duyurlar. Təbii ki, bu kimi addımlar gənclərin milli-mənəvi dəyərlərə bağlılığına öz müsbət təsirini göstərir. Böyüklərə hörmət və diqqət, onların qayğıları ilə yaşamaq, bu kateqoriyadan olan insanlara lazım olan dəstəyi göstərmək milli-mənəvi dəyərlərimizin əsas tərkib hissələridir. Həmin qayğıya mərhəməti, sədaqəti, xeyirxahlığı da əlavə etsək, bu ali keyfiyyətlərin fonunda koronavirus kimi bəladan uğurla çıxacağımızı əminliklə qeyd edə bilərik. Çünki birliyin, həmrəyliyin, vətəndaş məmnunluğunun yüksək səviyyədə olduğu bir ölkədə hansısa çətinlikdən, problemdən, yaxud onların həllinin mümkünsüzlüyündən danışmaq qeyri-mümkündür. "Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir" söyləyən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bu əminliyi də ifadə edir ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri- ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik.



*Vüqar Rəhimzadə,*
*Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru*

Koronavirus xəstələrinin müalicəsində də könüllülərin əməyi danılmazdır və dövlət tərəfindən yüksək dəyərləndirilir. Cənab İlham Əliyevin 18 mart 2020-ci il tarixli "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Sərəncamı deyilənlərin bariz nümunəsidir. Həmin sənədə əsasən tibb işçilərinin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə edildi. Həmin Sərəncamda bu mühüm bənd də öz əksini tapmışdır ki, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtləri müəyyənləşdirilsin. Ölkə Prezidentinin bu tapşırığına uyğun olaraq Baş Nazir Əli Əsədovun "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan işçilərin və könüllülərin əməyinin ödənilməsi barədə" Qərarında onlara 2020-ci il aprel 1-dən aylıq 250 manat məbləğində mükafat nəzərdə tutuldu. Möhtərəm Prezidentimizin fikirlərinə istinad etsək, onların əsas motivasiyası bu, deyil. Əsas odur ki, hər kəs öz borcunu yerinə yetirmək istəyir.

Bir əsas məqamı da qeyd etməliyəm ki, dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çağırışlarına cavab olaraq, koronavirus infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan bütün zəruri addımlara, xüsusilə əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərə töhfə vermək məqsədilə könüllü hərəkat və təşkilatlarının təşəbbüsü ilə yaradılan Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi bu qısa müddətdə fəaliyyət istiqamətini genişləndirməklə davamlı uğurlara öz töhfəsini vermişdir. Ətrafında birləşdirdiyi "ASAN Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyi, "Regional İnkişaf" İctimai Birliyi, "BİR Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, "Könüllü DOST" Proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "Nəqliyyat Könüllüləri" Proqramı, Bakı Şəhər Halqası Könüllüləri, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü Gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" İctimai Birliyi, habelə "Gənc Könüllülər" Hərəkatı və sair təşkilatların, hərəkatların təmsilçiləri ölkəmizdə koronavirus infeksiyasının yayılması ilə mübarizə sahəsində dövlətimiz tərəfindən atılmış qabaqlayıcı və preventiv xarakterli təcrid addımlarını yüksək qiymətləndirərək, bütün dünyanı bürümüş bu bəla ilə təkbaşına mübarizə aparmağın mümkün olmadığı, dövlət başçısının qeyd etdiyi kimi, xalq-iqtidar birliyinin, milli həmrəyliyin zəruri olduğu, bunu əməli müstəvidə nümayiş etdirmək məqsədilə könüllü təşkilatlarının da bu prosesdə aktiv iştirak etmələrinin vacibliyini vurğulamışdılar. Mərkəz məqsəd və məramına uyğun olaraq sosial mediada genişmiqyaslı müxtəlif təyinatlı maarifləndirmə kampaniyalarını fəal şəkildə aparır, ictimaiyyəti görülən işlər, həmçinin pandemiyanın yaratdığı fəsadlarla bağlı məlumatlandırır, günümüzün əsas tələblərinə çevrilən şəxsi gigiyena və sosial təcrid qaydalarına düzgün riayət olunmasının vacibliyini aşılayır, bununla əlaqədar müxtəlif virtual aksiya və fləşmoblar təşkil edir, tənha və ahıl vətəndaşlara sosial xidmətlərin göstərilməsi işində iştirak edir. Mərkəzin ətrafında birləşən hər bir təşkilat, hərəkat bu əminliyi ifadə edir ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə könüllülərin qarşısında geniş imkan açan 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi koronavirus infeksiyasının yayılmasının qarşısının alınmasında könüllülərin təşəbbüskarlığının, enerjisi və bacarıqlarının səfərbər olunmasına dövlət tərəfindən görülən işlərin faydalılığının artırılmasına müsbət təsir edəcək. Bu arzu və istəklə fəaliyyətə başlayan Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi adında ehtiva etdiyi missiyaya uyğun olaraq könüllü təşkilatlar və hərəkatlar arasında əlaqələndirməni yüksək səviyyədə həyata keçirməklə yerlərdə əhalinin həssas qrupları haqqında vacib məlumatların toplanmasına, onlara zəruri sosial xidmətlərin göstərilməsinin dəstəklənməsinə, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın və Ümumdünya Səhiyyə Təşkilatının qərar və tövsiyələri ilə bağlı ictimaiyyət arasında maarifləndirmə işinin həyata keçirilməsinə, həmçinin könüllü təşkilatlarının fəaliyyəti ilə müvafiq dövlət qurumlarının işinin əla-

qələndirilməsinə və sair kimi məsələlərə öz dəstəyini göstərməyə səy göstərir. Bir əsas məqamı da nəzərə alaq ki, Mərkəzin işinin əlaqələndirilməsi Gənclər Fondu tərəfindən həyata keçirilir.

Təbii ki, uğurlu başlanğıc, eyni zamanda, məqsəd növbəti addımların, nəticələrin aydın mənzərəsini yaradır. Qısa müddətdə Mərkəzin gördüyü işlərin statistikasına nəzər salsaq qarşıya qoyulan məqsədə nail olunacağına böyük əsaslar yarandığını açıq-aşkar görərik. Belə ki, paytaxt və regionlarda "Böyüklərimizi qoruyaq!" devizi altında tənha ahılların, aztəminatlı ailələrin, şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin qonağı olan, onlara zəruri tələbat məhsullarından ibarət bağlamaları çatdıran, 28 şəhər və rayonu əhatə edən minə yaxın könüllülərimiz 6254 ailəyə sevinc bəxş etmiş, onlara dəstək olmuşdur. Həmçinin "Könüllü qonşu" aksiyası çərçivəsində 44 şəhər və rayonda könüllülər xüsusi elanlar vasitəsilə ehtiyacı olanlar barədə məlumatın əldə olunmasına şərait yaratmışlar. Bir zəng əsasında ehtiyacı olanların köməyinə çatan könüllülərimiz vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına və kommunal ödənişlərinin həyata keçirilməsinə köməklik göstərirlər. Həmçinin Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Mərkəzi Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı ilə birlikdə "Könüllü donor" aksiyasına start vermişdir. Bu nəcib aksiyada da könüllülərimiz fəal iştirak edirlər.

Bu məqamı da xüsusi qeyd etmək istərdim ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva xalqımızın hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olması, ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması kimi gözəl xüsusiyyətlərini önə çəkərək irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulmasını bu nəcib keyfiyyətlərimizə bariz nümunə kimi qeyd etmişdir. Mehriban xanım Əliyeva belə bir arzunu ifadə etmişdir: "Qoy, xoş əməllərin sayı artsın. Uca Tanrı sizi qorusun!".

Möhtərəm Prezidentimiz İlham Əliyevin pandemiyaya qarşı həyata keçirdiyi mübarizə tədbirləri ilə bağlı ölkə vətəndaşları tərəfindən dövlətimizin başçısına ünvanlanan minnətdarlıq və təşəkkür məktublarında da könüllülərimizin bu fikirlərinə rast gəlirik: "Cənab Prezident, biz gənclər daim Sizin siyasətinizi və islahatlarınızı dəstəkləyirik və daim yanınızdayıq. Ölkəmizdə könüllülük yeni mərhələyə qədəm qoyub və böyük potensiala malikdir. Gənclərimiz Sizin diqqət və qayğınız, yaratdığınız şərait əsasında bu potensial imkanlardan daha səmərəli istifadə edərək günbəgün güclənən, qüdrətlənən dövlətimizin yeni-yeni hədəflərə nail olmasına öz töhfəsini verməyə səy göstərirlər". Göründüyü kimi, ölkə vətəndaşları arasında dövlətimizin həyata keçirdiyi siyasətə dəstək, Azərbaycan Pespublikasının möhtərəm Prezidentinə inam və etimad yüksək səviyyədədir. Şübhəsiz, bu yüksək inam və etimad, dövlət-vətəndaş birliyinin möhkəmliyi fonunda pandemiyaya qarşı mübarizədən də uğurla çıxacağıq. Eyni zamanda, yeni iqtisadi və sosial inkişaf modeli əsasında Azərbaycanın davamlı inkişafı təmin ediləcək, bütün sferaları əhatə edən islahatlar yeni-yeni hədəflərin gerçəkləşməsini şərtləndirəcəkdir. Bir sözlə, hər zaman olduğu kimi, pandemiya dövründə də dünyanın birləşdirən Azərbaycan ən yüksək zirvələri fəth edəcək.

# "Trampın təbrik məktubu Azərbaycana olan dəstəyin göstəricisidir"

***"Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrik məktubu ünvanlaması və Amerika xalqı adından salamlarını çatdırması eyni zamanda bir sıra mühüm mesajları önə çıxarıb". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı açıqlamasında deyib.***



Onun sözlərinə görə, burada əsas məqamlardan biri budur ki, Amerika Prezidenti burada amerikalılarla azərbaycanlıları böyük xalq olaraq tərənnüm edib və bunun timsalında 30 illik əməkdaşlığı göstərib: "Həmçinin, Azərbaycanın beynəlxalq aləmdə mühüm faktora çevrilməsi fonunda təhlükəsizlik, enerji təminatçısı kimi dəyərləndirilməsi də əhəmiyyət kəsb edən faktorlardandadır. Ümumiyyətlə, enerji marşrutlarının və mənbələrinin şaxələndirilməsi istiqamətində iki dövlət və xalq arasındakı münbit əməkdaşlıq amili bir daha öz təsdiqini tapmaqdadır".

"Bu sahələrlə yanaşı, cənab Trampın təbrik məktubunda Azərbaycanda demokratik mühitə də yüksək qiymət verməsi barədə fikirləri irəli sürməsi də sübut edir ki, ölkəmiz demokratiya aliliyinin qorunmasında, idarəçiliyində və inkişafında öncül yerlərdən birini tutmaqdadır", deyən baş redaktor hesab edir ki, Azərbaycan daim insan hüquq və azadlıqlarının qorunması baxımından örnək olaraq göstərilməkdədir: "Əbəs deyil ki, demokratiyanın beşiyi adlandırılan ABŞ bu kimi addımların atılmasında dəstəyini ifadə edir. Ümumiyyətlə, onu da nəzərə alaq ki, Donald Tramp hazırda dünyanı cənginə alan koronavirus pandemiyası dövründə Amerika xalqının Azərbaycan xalqının yanında olduğunu bəyan etməsi ilə eyni zamanda ölkəmizin humanizm dəyərlərinə verdiyi töhfələri də nəzərdə tutur və ona dəstəyini ifadə edir. Əbəs deyil ki, Azərbaycan təhlükəli infeksiya ilə mübarizədə digər ölkələrə nümunə etalonu olaraq göstərilməkdədir".

"Lakin sözügedən təbrik məktubunda verilən ən əsas mesaj Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi bəyanatıdır", deyən Bəhruz Quliyev hesab edir ki, ABŞ Minsk qrupunun həmsədr ölkəsi olaraq, Azərbaycan torpaqlarının işğala məruz qoyulması faktını tanımaqdadır: "Bildiyimiz kimi, bunu istər BMT-nin dörd qətnaməsi, istərsə də, digər nüfuzlu beynəlxalq təşkilatların sənədləri də sübut etməkdədir. Bu yanaşmadan çıxış edən Donald Tramp məktubunda Amerika tərəfinin Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsindəki iştirakının davam etdiriləcəyini vurğulayıb. Ümumiyyətlə, ABŞ-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə xidmət edən təbrik məktubu ölkələrimizin qarşıda daha geniş spektorda əməkdaşlıq funksionallığını artıracaq və xalqlarımızın mənafeyinə xidmət edəcək".

***Rövşən***

# "Partiyamız Prezidentin islahatlar proqramını dəstəkləyir"

"Partiyamız Prezident İlham Əliyevin islahatlar proqramını dəstəkləyir. Korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizədə onu tam müdafiə edir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İnsan Hüquqları



komitəsinin sədr müavini olan deputat, Vəhdət Partiyasının sədri Tahir Kərimli mənsub olduğu partiyanın fəaliyyətindən danışarkən deyib.

O bildirib ki, 2005-ci ildən etibarən partiya koordinal bir qərar qəbul edib: "Partiya mərkəzçi mövqeyi olmaqla Prezidentin daxili və xarici siyasətinin müdafiəsi ilə bağlı qərar qəbul etdi və indiyə qədər 15 il müddətində Vəhdət Partiyası sabit bir yol qət edib. Onun mübarizəsinin nəticəsidir ki, Partiya Parlamentə iki dəfə seçilib və Parlament partiyası olub. Ən böyük fəaliyyətimiz budur ki, Partiyamız hazırda parlament partiyasıdır və dövlətdən buna görə maliyyələşir. Bu da bizim çoxpartiyalı sistemdə mövqe qazanmağımıza kömək edib. Vəhdət Partiyasının, məhz, buna görə həm Mərkəzi Seçki Komissiyasında nümayəndələri təmsil olunur, həm Dairə Seçki Komissiyalarında, həm də respublikanın çoxlu sayda seçki məntəqələrində nümayəndələri mövcuddur".

Millət vəkili qeyd edib ki, Vəhdət Partiyası seçkili hakimiyyət orqanlarında dövlət hakimiyyətinin var olmasında da iştirak edir: "Eyni zamanda biz nizamnaməyə uyğun olaraq Baş Məclisimizdə mütəmadı, 3 aydan bir olmaqla iclaslar keçiririk. Sıravi məsələlər Siyasi şöbədən idarə olunur. Eyni zamanda, Partiyanın İcra aparatı, yeni, Sədr Aparatı mövcuddur və onun rəhbəri Partiyanın birinci müavini Vahab Manafovdur. Partiyanın aparatında 12 nəfər tam ştatlı, 10 nəfər isə yarımştatlı işçi fəaliyyət göstərir. Hazırda koronavirus pandemiyası qaydalarına uyğun fəaliyyət göstəririk. Yalnız zəruri hallarda icazələrlə partiya fəaliyyəti ilə məşğul oluruk".

Tahir Kərimli əlavə edib ki, hər gün öz və partiya üzvləri mütəmadi olaraq həm ölkədə, həm də dünyada baş verən ictimai-siyasi hadisələrə reaksiya verir: "Ölkədə və dünyada baş verən hadisələr hər gün diqqətimizdədir. Partiyamız Prezident İlham Əliyevin islahatlar proqramını da dəstəkləyir. Korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizədə onu tam müdafiə edir."

***Nigar Məmmədova***

## Koronavirusa qarşı effektiv dərman tapıldı?

Göthe və Frankfurt Universitetinin virusoloqları SARS-CoV-2 virusunun bərpasını dayandıran dərmanlar tapıblar. SİA xəbər verir ki, tədqiqatçıların bununla bağlı məqaləsi "Nature" jurnalında dərc olunub. Alimlər koronavirus infeksiyasının insan hüceyrələrini dəyişdiyini nümayiş etdiriblər. Onlar kolon hüceyrələrində zülalların sintezinin sürətini və onların sayını müəyyən etmək üçün meP-ROD kütlə spektrometriya üsulunun xüsusi bir növünü istifadə ediblər. Məlum olub ki, bir çox viruslar zülalların istehsalını virus zülallarının xeyrinə dayandırsalar da, SARS-CoV-2 yalnız zülalın istehsalına cüzi təsir edir. Eyni zamanda onun sintezini sürətləndirir.

## Naxçıvan Qarnizonu Qoşunlarında toplantı keçirildi

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən bölük, batareya komandirləri və müavinləri təlim-metodiki toplantıya cəlb ediliblər. SİA-nın məlumatına görə, Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələrində məşğələlərin vahid metodika üzrə keçirilməsinə nail olmaq üçün təşkil olunan toplantıda zabitlərə taktiki sıra üsulu ilə vacib fənlərdən məşğələlər keçirilib. Zabitlər döyüş sahəsində bölmələrin, şəxsi heyətin və atəşin idarə edilməsi üzrə göstərici və nümunəvi təlimlərin vacib epizodlarını izləyiblər. Təlimlər zamanı döyüş sahəsində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılmasında komandirlərin roluna xüsusi diqqət yetirilib.



# “Milli Şura” sağlam düşüncəli ictimai rəyin qınağında və hiddətində

## Qurum təmsilçiləri sərt şəkildə hədəfə alınıblar

***“Milli Şura”nın sonuncu virtual toplantısı - “zoom konfrans” zamanı qurumun koordinasiya mərkəzinin təmsilçilərinin iştirakı ilə üzə çıxan biabırçı faktlar ictimai rəyin tanınmış şəxsləri, media adamları, habelə siyasi partiya rəsmiləri tərəfindən də qınanılmaqdadır.***

İstər AXCP sədri Əli Kərimlinin, istər Cəmil Həsənlinin, istər Gültəkin Hacıbəylinin, eləcə də “Milli Şura”nın digər təmsilçilərinin sözügedən toplantının canlı yayımda ictimailəşdirilməsinə baxmayaraq, baş verənləri gizlətmək məqsədi ilə hakimiyyətə böhtan atmaları, “bəyanat” yayaraq bunu “kibercinayətkarlıq” kimi qələmə vermələri, o cümlədən, onların digər müxalifət partiyalarına qarşı təhqirli mövqe sərgiləmələri, habelə, koordinasiya şurasının aparıcı üzvlərindən sayılan Eldəniz Quliyevin səsli-küylü istefası bu adamların normal, sivil müxalifətçilik qabiliyyətlərinin olmaması ilə yanaşı, həm də əxlaqi baxımdan ciddi problemlərinin mövcud olmasını isbatladı.

SİA olaraq, bir sıra tanınmış şəxslərin sözügedən mövzu ilə bağlı münasibətlərini diqqətə çatdırırıq.

Qhtxeber.az saytının baş redaktoru Sənan Nəcəfov: “Güliçkanın əlində növbəti dəfə bomba partladı, əl atdı ki, rüsvayçılıqdan özünü “kibercinayət”, “izləyirlər, dinləyirlər” bəhanəsi sığortalasın, növbəti dəfə yağışdan çıxıb, yağmura düşdü”

“Kərimli növbəti dəfə özünü biabır etdi. Məsləhət idi ki, bu məqamda susa”. Bu fikirləri qhtxeber.az saytının rəhbəri, tanınmış jurnalist Sənan Nəcəfov sözügedən mövzu ilə bağlı fikirlərini yazarkən qeyd edib. O, G.Hacıbəylinin hakimiyyətə qarşı “kibercinayətkarlıq” ittihamına cavab olaraq yazıb ki, əslində belə davranış onların köhnə adətləridir: “Güliçkanın əlində növbəti dəfə bomba partladı, əl atdı ki, rüsvayçılıqdan özünü “kibercinayət”, “izləyirlər, dinləyirlər” bəhanəsi sığortalasın, növbəti dəfə yağışdan çıxıb, yağmura düşdü. Xatırladım ki, “8 mart”-hür küçələr, Bakı da bizimdir, filan yer mənimdir, kimə istəsəm paylayaram, zad söhbəti zamanı Kərimli özünü demokrat, insan haqlarının mahir müdafiəçisi kimi göstərib



status paylaşmışdı ki, sosial şəbəkə istifadəçilərindən, abır-həya edən insanlardan elə basqı gördü ki, sözünü geri götürdü. “Mən ancaq toplaşmaq hüququdhfgshjd”. Bu dəfə də təkrarlandı. Necə? Tutaq ki, video kimin vasitəsilə yayılıb, (halbuki Qəminət özü dedi ki, canlıdır) bu əsas verirmi ki, insanları təhqir etsinlər, küçə söhbətləri etsinlər, söyüş söysünlər? Bay, Kərimli Əli, gözəl atalar sözündə deyildi kimi, ya demokratiyadan doy, ya əldən qoy. Belə başqa cür alınmır. Quraşdırdığın minalar tez partlayır, bu qədər yaralanmaq olmaz”.

**REAL partiyasının icraçı katibi Natiq Cəfərli: “Onların REAL və Müsavat haqqında dedikləri alçaq cümlələr olmasaydı, yəqin ki, belə geniş şərh yazmazdım”**

REAL partiyasının da zoom konfrans zamanı ardıcıl təhqirlərə məruz qalması qarşı tərəfin hiddətinə səbəb olub. Partiyanın icraçı katibi Natiq Cəfərli sosial şəbəkədəki səhifəsində yazıb ki, “Milli Şura” ilə bağlı hər şey ona çoxdan məlum idi: “O qurumla bağlı şəxsən mənə 2013-də hər şey aydın idi. O zaman 7 dəfə danışıq apardıqdan sonra o mənasız, ipi yüz əldə olan quruma qoşulmaqdan imtina etdik. Hətta həbsdə olan sədrin təkidinə baxmayaraq imtina etdik. Çünki, dəyərləri, prinsipləri, aydın planı-proqramı olmayan, şəxsşəxslər ərtafında bütpərəst təfəkkürlə qurulan təşkilata qoşulmaq axmaqlıq olardı. Sonradan da, indi də nə qədər haqlı olduğumuz öz təsdiqini tapdı”.

N.Cəfərli VHP-nin “Milli Şura”dakı təmsilçisi Rafiq Manafİının faşist Almaniyasının lideri Adolf Hitlerə rəğbət bəsləməsi faktına da ironik münasibət bildirib. SİTAT: “Gənc olmayan hitlerçilərə geniş cavab vermək istəmirəm, amma Gültəkinin layklar, şərhlərdə olan söyüşlər və internet baxışları haqqındakı cümlələr bir daha təsdiq etdi ki, bunlar 100 nəfərin hərəsinə 15-20 saxta profil açmaqla layklar və disklayklar qoyurlar, şərhlərə söyüş yazdırırlar ki, sonradan bunu öz cılız və axmaq “arqumentlətinə” çevirsinlər. Bunu hamı bilirdi, amma indi daha aydın və aşkar göründü. Onların REAL və Müsavat haqqında dedikləri alçaq cümlələr olmasaydı, yəqin ki, belə geniş şərh yazmazdım”.

“Bir çox dostlar MŞ-nın buraxılmasını tələb edir, olmayan qurum necə buraxılacaq ki?! MŞ yoxdur, AXCP var”, deyə davam edən N.Cəfərliyə görə, o partiya özünə oyuncaq yan qurum kimi MŞ-nı saxlayırdı ki, məsələn, xaricilərlə görüşəndə iki təmsilçi ilə getsinlər, və ya daxildə hər hansı bir siyasi birlik ideyası olsa ora hər iki qurumdan təmsilçi salaraq səsvermədə üstünlük qazansınlar: “Vəssalam. Bu qədər primitiv və köhnədirlər. Bunların nə demokratiya dərdi var, nə də haqq-hüquq gündəliyi, çünki o dəyərlər haqqında təsəvvürləri belə yoxdur”.

REAL rəsmisi onları hakimiyyətə işləməkdə ittiham edən “Milli Şura” təmsilçilərinin əksəriyyətinin zamanında həmin işi gördüklərini bildirib və əlavə edib ki, onların siyasət anlayışı o qədər primitiv, keçmişləri o qədər qaranlıqdır ki, istənilən başqa cür düşünən-davranan siyasi təşkilatı həmən düşmən görüb sıradan çıxartmağa çalışırlar...

**Jurnalist Azər Rəşidoğlu: “Zoom-konfrans bazar qadınlarının qeybətinə bənzəyirdi”**

“Yazmaya bilməzdim. Mənəvi borc bildim özümə. İstəyən oxusun, istəməyən oxumasın, bunları deməliyəm. Eldəniz Quliyev Milli Şuradan istefa verdi. Onu heç vaxt nə güclü rejissor, nə siyasətçi, nə ziyalı hesab etmişəm”, yazan jurnalist Azər Rəşidoğlu digər fikirləri ilə yanaşı onu da qeyd edib ki, vaxtında KQB-nin arxivləri açılsaydı, indi çoxları “mıq” eləyə bilməzdi. O, bu məsələdə Eldəniz Quliyevin agent olduğuna işarə vermədiyini də qeyd edib.

A.Rəşidoğlu davam edir: “Beləliklə, E.Quliyev istefa verdi, Cəmil Həsənli, Gültəkin Hacıbəyli geylərdən üzr istədi. Söz azadlığıdır? Yox! Söz azadlığı olsaydı, bu gün MŞ-da olanlar on illərdir təhqir etdikləri İsa Qəmbərdən, sıravi müxalifətçilərdən də üzr istəyərdilər. Yüz minlərlə müsavatçı 2013-cü C.Həsənliyə səs vermişdi, amma professor onların az qala həmısını dönük adlandırır, amma geylərdən üzr istəyir. G.Hacıbəyli də keçmiş əqidədaşlarını - hakimiyyət mənsublarını təhqir edir, bu gün müxalifətin əzabını yaşayan müsavatçıları təhqir edir, üzr istəmir, amma seksual azlıqlardan üzr istəyir...”

Tanınmış jurnalist Müsavatın sabiq başqanı İ.Qəmbərin tərəfdarı olmadığını yazaraq qeyd edir ki, o da müəyyən işlər görüb və hazırda C.Həsənlinin və “Milli Şura” rəhbərliyinin onu təhqir etməsi, üzr istəməməsi, əksinə, İsmayıl adlı geydən həvəslə üzr istəmələri doğru seçim deyil: “Ə.Kərimli isə yenə də susur. Müdrikcəsinə. Onun əmrində olan minlərlə fəal (trol yazmaq istəmədim) müsavatçıları, realçıları. müstəqil jurnalistləri linç edir, geylər isə toxunulmazdır, çünki onların arxasında Xədicə İsmayıl durur. Xədicəyə qarşı isə gəlməyə onların cəsarəti çatmır. Bu, rəzalət deyil, nədir? Burada bir məqamı da yazmaq istəyirəm. Məşhur zoom-konfrans bazar qadınlarının qeybətinə bənzəyirdi. Bu səviyyədə olanalra kim səs verər ki? “Gey qalmaqalı”nı unutmaq üçün onlara yeni hədəf lazımdır. Odur ki, hər birimiz təhqir oluna bilərik. Lakin və amma geyləri dəstəkləyən, onlardan üzr istəyən heç bir siyasi qüvvəyə səs vermək fikrində deyiləm!”

Beləliklə, həm də belə qənaətə gəlmək olar ki, əslində bu, “Milli Şura”nın, bütövlükdə isə, məhz AXCP sədri Əli Kərimlinin və yanyörəsinin son akkordlarıdır. Halbuki, onlar siyasi arenanı üzüsulu şəkildə də tərk etmək imkanlarına malik olublar, özü də dəfələrlə. Sadəcə, bu imkanlardan istifadə etməməklə, daha keçilməz bataqlığa doğru irəliləyiblər. Bu isə, əslində sondur - rüsvayçı, biabırçı və heç bir halda haqq qazandırıla bilinməyəcək acizlərin sonu!

***Rövşən NURƏDDİNOĞLU***

**P.S.** Xatırladaq ki, Müsavat başqanı Arif Hacılı da bu arada mətbuata açıqlamasında sözügedən təhqirlərə görə fikir bildirib. “Müsavatçılar Cəmil Həsənlidən, Gültəkin Hacıbəylidən və Milli Şuranın üzr istəməsini tələb ediblər. Bununla bağlı bütün hallarda partiyamızın açıqlaması olacaq. Sadəcə, üzr istəsələr, açıqlama başqa, üzr istəməsələr isə başqa şəkildə olacaq. Bu, ümumilikdə çox pis hadisədir. Hazırda bu məsələni araşdırırıq. Ümid edirəm ki, onlar özləri yaxın vaxtlarda bu məsələyə aydınlıq gətirəcəklər”, deyə müsavatçıların rəhbəri bildirib.

---

# 600 mindən çox istifadəçi ən reytinqli virtual müştəri xidməti aləti “Mənim Bakcellim”i seçir

***600 mindən çox aktiv istifadəçisi olan “Mənim Bakcellim” ölkənin mobil operatorları tərəfindən təqdim olunan tətbiqetmələr arasında ən çox seçilən proqramdır. Bu aplikasiya 600 min dəfədən çox yüklənilməklə Azərbaycanın telekom tətbiqetmələri arasında ən yüksək reytinqi qazanıb. Bundan əlavə, “Mənim Bakcellim” ümumi reytinqlərdə də yüksək nəticə göstərərək Azərbaycanın ən populyar pulsuz tətbiqetmələri sırasında yer alıb. Həmçinin, istifadəçilərin 83 faizi bu tətbiqetməyə 5+ reytinqini verib.***

Abunəçiləri ən üstün müştəri təcrübəsi ilə təmin etmək məqsədilə iki il bundan əvvəl istifadəyə verilmiş bu virtual müştəri xidmətləri aləti məlumat mərkəzinə zəng etmədən və xidmət mərkəzinə getmədən mobil nömrə ilə istənilən əməliyyatı həyata keçirmək üçün çox rahat və sadə üsuldur. “Mənim Bakcellim”dən tamamilə pulsuz istifadə edən abunəçilər eyni zamanda balans, aktiv bonuslar, istifadə etdikləri xidmət və ya məhsulun qüvvədən düşmə tarixi, balansda qalan meqabaytlar və nömrə barədə digər məlumatları asanlıqla əldə edə bilirlər. Bundan əlavə, “Mənim Bakcellim” istifadəçiləri zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət edirlər. Həmçinin, Bakcell xidmətlərinə aid suallara isə bir zamanda cavab almaq üçün




onlayn çat funksiyası vasitəsilə Bakcell əməkdaşları ilə əlaqə saxlamaq mümkündür.

“Bakcell öz abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etmək üçün böyük işlər görür. Biz “Mənim Bakcellim”i bazarda ən seçilən və ən yüksək reytinqlərə malik olan aplikasiya kimi görməkdən çox məmnunuq. “Ookla” tərəfindən dəfələrlə ən üstün və ən sürətli mobil şəbəkə olaraq tanınan Bakcell şəbəkəsi vasitəsilə abunəçilərimizə yüksək keyfiyyətli xidmət göstərmək üçün əlimizdən gələni etməyə davam edəcəyik”, deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Ratgeber bildirib.

“Mənim Bakcellim” mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün “Google Play” və “Appstore” portallarından pulsuz yükləmək olar. Qeyd edək ki, qeydiyyatdan keçəndən sonra abunəçilər kompüter və planşet kimi cihazlarda “Mənim Bakcellim” proqramının “desktop” versiyasından yararlana bilərlər. Daha ətraflı məlumat və proqramı yükləmək üçün linklər https://www.bakcell.com/az/my-bakcell səhifəsində yerləşdirilib.

# Laçının işğalından 28 il ötür

***1992-ci il mayın 17-də Ermənistan ordusu Şuşanın Turşsu kəndi və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçərək, Laçını işğal edib. İşğal 18 mayda tam başa çatıb. Düz 27 il əvvəl törədilən işğalın acı nəticələrini bu gün də yaşayırıq. Laçının işğalı damarında azərbaycanlı qanı dövr edən hər kəs üçün çox ağırdır. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil olub. Laçın işğal olunmamışdan bir gün qabaq, Azərbaycanın dağınıq halda olan silahlı dəstələrinin böyük əksəriyyəti cəbhə bölgəsini tərk edib. Bu işğala səbəb o vaxtkı iqtidarın və hakimiyyət uğrunda mübarizə aparan antimilli qüvvələrin fəaliyyəti idi. Laçının işğalı Dağlıq Qarabağla Ermənistan arasında əlaqənin yaranmasına gətirib çıxardı. İşğal nəticəsində 1835 kv. kilometrlik ərazi zəbt edildi, yüzlərlə maddi-mədəniyyət nümunəsi erməni vandalizminə tuş gəldi.***





Rayonun işğalı nəticəsində, 1 şəhər, 1 qəsəbə, 125 kənd, 13 min 745 fərdi ev, 48 sənaye, 63 kənd təsərrüfatı obyekti, 101 məktəb, 5 məktəbdənkənar, 2 məktəbəqədər müəssisə, 1 peşə məktəbi, 142 səhiyyə, 217 mədəni-maarif, 460 ticarət obyekti, 30 rabitə qovşağı, xalq teatrı, tarix-diyarşünaslıq muzeyi, 200-dən çox tarixi abidə talan edilərək dağıdılıb. Müharibə zamanı 267 laçınlı şəhid olub, 66 nəfər girov götürülüb, 105 nəfər əlilə çevrilib. Bu statistik rəqəmlər Laçının erməni qəsbkarları tərəfindən necə zəbt olunmasını açıq-aydın göstərir. Bütün dünyanın və beynəlxalq təşkilatların işğalçı ölkə kimi tanıdığı Ermənistanın silahlı qüvvələri bu şəhərdə Azərbaycan xalqının izlərini silmək, onu unutdurmaq üçün ən ağlagəlməz cinayətlərə əl atırlar.

### "LAÇINLILARIN EVLƏRİNDƏ İNDİ DÜŞMƏNLƏR YAŞAYIR"

Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Laçının işğal altına düşməsi təkcə laçınlıların deyil, bizim hamımızın böyük faciəsidir: "Çünki Laçının gözəl abidələri indi dağıdılıbdır. Bizim dini abidələrimiz dağıdılıbdır. Muzey eksponatlarımız talan edilibdir, evlər dağıdılıbdır. Laçınlıların evlərində indi düşmənlər yaşayır. Bu da, bir dərddir. Evin sökülməsi dərddir, amma evdə düşmənin yaşaması ondan da böyük dərddir". Prezident İlham Əliyev Laçın rayonunun bu vəziyyəti ilə barışmağın mümkün olmadığını bildirib.

### "AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜBƏRPA EDİLMƏLİDİR, BÜTÜN KÖÇKÜNLƏR ÖZ DOĞMA TORPAQLARINA QAYITMALIDIRLAR"

İndi Azərbaycan dünyada böyük nüfuz sahibi olan dövlət kimi tanınır. Azərbaycanın iqtisadi potensialı və hərbi gücü, onu deməyə əsas verir ki, işğal altında olan torpaqlarmızın azad olunacağı gün uzaqda deyil. Bu, qaçılmaz reallıqdır. "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar" deyən Prezidentin bu fikirləri Azərbaycan həqiqətlərinə söykənir: "Biz bu illər ərzində böyük dərəcədə güclənmişik. Biz güclü hərbi potensial yaratmışıq. Bundan sonra, növbəti illərdə Ermənistan ilə Azərbaycan arasındakı fərq ancaq böyüyəcəkdir. Bu fərq hər yerdə özünü göstərir - iqtisadiyyatda, ölkələrimizin siyasi çəkisində, beynəlxalq dəstəkdə, hərbi potensialda və eyni zamanda, demoqrafik göstəricilərdə".

Azərbaycan danışıqlar prosesini hər zaman ardıcıl olaraq, davam etdirir. Beynəlxalq təşkilatların qərarları və qətnamələri Azərbaycanın haqlı mövqeyini müdafiə etsə də, erməni lobbisi və havadarları ermənilərə dəstək olurlar. Ermənistan beynəlxalq təşkilatların, BMT-nin, onun Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir. "Beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çəkilsin, imkan versin və Azərbaycan vətəndaşları o torpaqlara qayıtsınlar. Çünki bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır" deyən Cənab İlham Əliyev dünya ermənipərəstliyinin və onların arxasında dayanan anti-Azərbaycan qüvvələrinin fəaliyyəti nəticəsində, bu məsələnin də, dondurulmuş vəziyyətdə qaldığını bəyan edir.

### "BİZ İSTƏNİLƏN YOLLA ÖZ ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜ BƏRPA EDƏCƏYİK"

Təbii ki, işğal altında olan torpaqlarımız işğalçılardan azad ediləndən sonra, bütün torpaqlarda, o cümlədən, Laçında yeni inkişaf dövrü yaşanılacaq. Buna Azərbaycanın iqtisadi gücü çatar. Bu gün respublikamızın, ümumilikdə, 59 rayon və şəhərində müvəqqəti məskunlaşan 71,2 min laçınlıdan 13 mini Ağcabədi rayonu Taxtakörpü ərazisində yerləşib. Məcburi köçkünlər üçün burada yeni yaşayış qəsəbələri, parklar salınıb və Şəhidlər Kompleksi ucaldılıb. Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan qəsəbədə bütün imkanlar yaradılsa da, dövlət başçısının apardığı prinsipial və ardıcıl siyasəti, birmənalı şəkildə, müdafiə edən laçınlılar el-obalarına - Laçına getmək arzusundadırlar. Ölkəmizin artan beynəlxalq nüfuzu və hərbi qüdrəti onların dədə-baba torpaqlarına tezliklə dönəcəklərinə əminlik yaradıb. İyirmi yeddi illik məcburi köçkünlük həyatı yaşamalarına baxmayaraq, inanırlar ki, işğal altındakı bütün ərazilərimiz düşmən tapdağından azad ediləcək. Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik, səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

### "ORDU QURUCULUĞU, MÜDAFİƏ POTENSİALININ MÖHKƏMLƏNMƏSİ VƏ GÜCLÜ ORDUNUN YARANMASI DÖVLƏT ÜÇÜN, HÖKUMƏT ÜÇÜN VƏ HƏR BİR VƏTƏNDAŞ ÜÇÜN BİR NÖMRƏLİ VƏZİFƏDİR"

Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Laçını sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq gücündədir. MDB çərçivəsində Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin "Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır" fikrini ifadə etməsi, məhz bu gerçəkliklərdən qaynaqlanır.

Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə, son illər ərzində, böyük işlər görülüb. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, "Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik".

### ERMƏNİSTANIN, ONUN İŞĞALÇILIQ SİYASƏTİNİN HEÇ BİR PERSPEKTİVİ YOXDUR

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Cənab Prezidentin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Dağlıq Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır.

***Zümrüd BAYRAMOVA***

# Elçin Mirzəbəyli: "Radikal düşərgə təmsilçilərinin söhbətini ən yaxşı halda "videoqeybət" adlandırmaq olar"



*Əslində Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Rafiq Manafov, Vidadi Mirkamal, Qənimət Zahid və digərlərinin iştirak etdiyi videokonfransı "videoqeybət" və yaxud qeybət videokonfransı adlandırmaq daha doğru olar.*

Bunu Trend-ə Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Elçin Mirzəbəyli deyib. E.Mirzəbəyli bildirib ki, müzakirə olunan mövzular və bu mövzularla bağlı səsləndirilən fikirlərin qurşaqdan aşağı səviyyəsi radikal düşərgə təmsilçilərinin söhbətinin ən yaxşı halda "qeybət" adlandırılmasına imkan verir:

"Videoqeybətin baş ittihamçısı rolunda çıxış edən Gültəkin Hacıbəyli sosial şəbəkələrdə seksual azlıqlara qarşı apardığı "qlobal mübarizə", virtial "fədakarlıq" nümunələrindən bəhs edir və bildirir ki, "Qərbin bir nömrəli prioriteti bu üzdəniraqların hüquqlarıdır". Gültəkin Hacıbəyli seksual azlıqlarla virtual mübarizə mövzusunda çıxış-qeybətini, başqalarına münasibətdə, həmçinin özünə yaraşdırdığı qeyri-etik və aşağılayıcı ifadələrlə davam etdirir: "yaramaz gədə", "ikiüzlü", "riyakar"... Bunun davamı olaraq, onunla eyni "dəyərlər"in daşıyıcısı olan başqa birisinin seksual azlıqların təmsilçisi ilə virtual "müharibə"də göstərdiyi "qəhrəmanlıq"dan danışır və özü də bilmədən onunla eyni düşərgəni və düşüncəni bölüşən şəxslərin özünüifadə metodlarının, təfəkkürlərinin səviyyəsini açıb ortalığa qoyur: "Xədicə onun statusunun altına girib ağzına gələni yazdı ki..."

Burada "Dil çaşar düzünü deyər" el məsələni xatırlatmaq, yerinə düşür. Gültəkin Hacəbəyli də ya zəlzələdən, ya vəlvələdən, illərdən bəri siyasi opponentlərinə qarşı ağıllarına gələnləri deyil, ağızlarına gələn nə varsa, ağına-bozuna baxmadan "püskürdüklərini" dolayısıyla etiraf edir. Gültəkinin bu ehtiraslı çıxışına sualı ilə "qüvvət verən" "Milli Şura" üzvü Rafiq Manafov isə daha da irəli gedərək, "kişi q...dən nə gözləyirsiniz" deyir və dəstəyini daha mübaliğəli şəkildə ifadə etmək üçün bəşər tarixinin ən qaniçən cəlladlarından biri olan Adolf Hitleri nümunə gətirir: "Mən çox təəssüf edirəm ki, 41-45-də Hitler geyləri qırıb qurtarmadı..." Bu ifadənin kimlər üçünsə müzakirə oluna, yaxud olunmaya biləcək tərəflərini bir kənara qoyuram. Amma bu günə qədər, "Milli Şura"da təmsil olunan bir çoxları, o cümlədən Əli Kərimli və onun ətrafı Gültəkin Hacıbəylinin dediyi kimi "Qərbin bir nömrəli prioritet" saydığı, "həssas yanaşdığı" mövzularda, o cümlədən seksual azlıqların hüquqları ilə bağlı məsələlərdə tamamilə fərqli bir mövqe nümayiş etdiriblər.

İndi isə "Milli Şura"nın üzvlərindən biri onları "üzdəniraq" adlandırır, digəri isə faşistlərin onların qırıb qurtarmadığına görə təəssüflənir. Bu isə sübuta yetirir ki, radikal düşərgə başbilənlərinin əhəmiyyətli hissəsi "azlıqların hüquqları", "demokratiya" və digər bu kimi məsələlərlə bağlı danışanda da hesabat verdikləri xarici dairələrin maraqlarını təmin etmək, onlara xoş gəlmək, eyni prinsipləri paylaşdıqlarını görüntüləmək naminə danışıblar. Yəni ortalıqda heç bir prinsip olmayıb, sadəcə maraqlar olub, vəssalam! Əgər bu şəxslər hər hansı bir prinsipə söykənərək hərəkət etsəydilər, üzdə bir, arxada isə tamamilə başqa yanaşma sərgiləməzdilər. Çünki, demokratiya, insan hüquq və azadlıqları kompleks anlayışdır və bu prinsiplərin hansısa birini kontekstdən çıxarmaqla demokrat olmaq mümkün deyil. Əslində, bu düşərgədə demokratiyanın "D"sından da əsər-ələmət yoxdur. Əks təqdirdə Gültəkin Hacıbəyli sözügedən "videoqeybət"də Müsavat Partiyasının üzvlərinə xitabən "bu yaramazlar heç bir dəstək vermirlər Tofiq bəyə" deməklə, onlarla eyni baxış bucağını bölüşməyən insanları aşağılamazdı... Və yaxud Müsavat Partiyasını təmsil edən Mustafa adlı şəxsin "sərsəm bir şey" yazdığını dilə gətirməzdi və qısa bir zaman öncə onunla eyni siyasi cərgədə dayanan insanları "mühacir alveri"ndə ittiham etməzdi, istehza ilə müsavatçıların "rüsvayçı bir vəziyyətdə olduqlarını" söyləməzdi.

Cəmil Həsənli də, həmçinin yaşına-başına yaraşmayan bir şəkildə, konkret ad çəkmədən, ünvan göstərmədən və bütövlükdə Müsavat Partiyasının üzvlərini nəzərdə tutaraq, "bədbəxtlər" ifadəsini işlətməzdi... Bunların dünyagörüşünə, təfəkkürünə, rəqiblərinə münasibətinə "heyran" qalmamaq mümkün deyil. Məsələn, Gültəkin Hacıbəyli "videoqeybət" formatındakı "möhtəşəm" nitqində İlqar Məmmədovu məsxərəyə qoyur və deyir ki, "REAL rəhbərinin statusuna cəmi 3 min adam baxıb, 75 laykı var". Bir siyasətçi kimi hesablama, təhliletmə, proqnozlaşdırma qabiliyyətləri rəqiblərinin layklarını hesablamaqdan ibarət olan bu adamların siyasətdə nə işləri var, görəsən? Gültəkin Hacıbəyli deyir ki, "İlqar Məmmədov bitib... Həm siyasətçi olaraq bitib, həm partiyası bitib". Əgər Qənimət Zahidin "canlı yayımdayıq" deyə yarıxəbərdarlıq, yarıqorxaqlıq təsiri bağışlayan sözləri olmasaydı, çox güman ki, ifadələr daha sərt olacaq və Adolf Hitlerlə bağlı Rafiq Manafovun gətirdiyi misal REAL-çılara və müsavatçılara da şamil ediləcəkdi. Təsəvvür edin ki, fərqli fikirləri, yanaşmaları süngü ilə qarşılayan bu adamlar hakimiyyətə yiyələniblər... Heç şübhə etmirəm ki, onlarla eyni baxış bucağını bölüşməyən hər kəsi əsir düşərgələrinə, bəlkə də qaz kameralarına "yola salardılar"... Hətta "avroritarizm" sözünün özü belə "Milli Şura" başbilənlərinin aqressiya, kin, qəzəb və qəddarlığın iç-içə olduğu dünyagörüşlərinin yanında kölgədə qalır. Bu, neofaşist təfəkkürüdür!".

# Vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edilib



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdində H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Mehriban Rüstəmovanın məktəbdə işləyən müəllimlərin əməkhaqlarını mənimsəməsi barədə daxil olmuş məlumat Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Mehriban Rüstəmovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək məktəbdə çalışan ayrı-ayrı müəllimlərə məxsus əməkhaqqı kartlarını qanunsuz ələ keçirib, həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomatdan şəxsən çıxarmaqla, habelə müəllimlərin əməkhaqqı kartlarına köçürülmüş aylıq əməkhaqqının əhəmiyyətli hissəsini tələb edərək külli miqdarda pul vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən olunduğundan fakt üzrə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Məhkəmə qərarına əsasən M.Rüstəmovanın xidməti otağında, onun Nəsimi rayonunda yerləşən evində və avtomobilində keçirilmiş axtarış nəticəsində rəhbərlik etdiyi musiqi məktəbinin müəllimlərinin adlarına olan 40 ədəd plastik kart, müxtəlif ölkələrin valyutalarında saxlanılan 40 min manata yaxın pul vəsaiti, musiqi məktəbinin şagirdlərinin adına olan 36 şəhadətnamə, məktəbin tarifləşmə və tabel cədvəlləri, əmr kitabı, bir "notebook" və iş üçün əhəmiyyət kəsb edən digər sənəd və əşyalar aşkarlanaraq götürülüb.

İstintaq zamanı M.Rüstəmovanın müəllimlərin adına olan 40 ədəd əməkhaqqına dair plastik kartları özündə saxlayaraq həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomat vasitəsilə ələ keçirərək mənimsəməsi özünün etirafı, eləcə də iş üzrə toplanmış digər sübutlarla təsdiqini tapıb.

İlkin sübutlara, həmçinin M.Rüstəmovanın məktəbin müəllimlərindən qanunsuz yollarla topladığı pul vəsaitinin bir qisminin qabaqcadan əldə edilmiş razılaşmaya uyğun olaraq Bakı şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşına verilməsi, digər qisminin isə özü tərəfindən mənimsənilməsinə əsaslı şübhələr müəyyən olunub. Hazırda iş üzrə bütün qanunazidd halları tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Paşinyan faşist xislətini üzə çıxarmağa başlayıb"



"Ümumiyyətlə biz II Dünya Müharibəsində ermənilərin faşist Almaniyasına xüsusi canfəşanlıqla xidmət etməsinin tarixi mənbələrdən şahidi olmuşuq". Bunu SİA-ya açıqlamasında hərbi-siyasi icmalçı Ramil Məmmədli deyib. "Erməni xisləti və xalqının xarakteri əsasən faşizm üzərində qurulub. Yəni ermənilər bu xüsusiyyəti gizlətsələr də, bunu qapalı saxlasalar da hər bir erməni Adolf Hitler təfəkküründən uzağa gedə bilmir. Onların hər birində Hitler təfəkkürü var. Əgər belə olmasaydı onlar son 100 ildə bir-birinin ardınca digər millətlərə, xalqlara qarşı soyqırım aktları, soyqırımlar, qətliamlar törətməzdilər. Ermənistanın Baş naziri Nikol Paşinyanın babasının da faşistlərə xidmət etməsi və bu sırada ön cərgədə duranlardan biri olması da təsadüfi deyil. Məhz bu xislətdən irəli gəlir. Paşinyanın bugünkü addımları, açıqlamaları (Dağlıq Qarabağla, Azərbaycanla, digər millətlərlə bağlı) da on göstərir ki, bu insan öz babasının həm mənəvi, həm də fiziki olaraq davamçısıdır. Biz artıq onu faşizm təfəkküründə böyüməsində görməyə başlayırıq. Yəni demokratiya pərdəsi altında hakimiyyətə gələn Nikol Paşinyan artıq bu faşist xislətini üzə çıxarmağa başlayıb"-deyə, R.Məmmədli bildirib.

***Ceyhun Rasimoğlu***

# Universitet tələbəsini öldürən 11-ci sinif şagirdi həbs olundu



Mayın 14-də saat 19 radələrində 2002-ci il təvəllüdlü Zaqatala rayonu Mosul kənd sakini İlyas İlyasovun bıçaqlanaraq öldürülməsi barədə daxil olan məlumat əsasında dərhal polis və prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Zaqatala rayon Prokurorluğundan SİA-ya verilən məlumata görə, faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin 2003-cü il təvəllüdlü rayon sakini Əlimməmməd Əlimməmmədov tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Ə.Əlimməmmədov müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi cinayəti etiraf etmiş və səmimi peşman olmasını bildirib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Qeyd edək ki, Ə.Əlimməmmədov Mosul kənd tam orta məktəbin 11-ci sinif şagirdidir. İ.İlyasov isə universitet tələbəsidir.

# Dünənki dələduzlar bu gün "haqdan" dəm vururlar

## Yaxud Əli Kərimli ilana ağı verən kərtənkələdir

**_YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun dediyi bu sözlər yerində deyilmiş və satqın erməni çörəyi yeyən Əli Kərimlinin kimliyini araşdırmağa ehtiyac olmadığını təsdiqləyir. Çünki müxalifətçi partiya sədri adı altında maskalanan Kərimli və yaxın ətraflarının qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməkdir. O zaman soruşmaq istərdik: bu 27 il ərzində nə əldə edibsiniz? Çünki bu 27 il ərzində ancaq özünüz deyib, özünüz eşitmisiniz._**

Və bu barədə düşünüblərmi ki, 27 il müddətində dəfələrlə seçkiləri və referendumları "boykot" etmələrinə rəğmən, ancaq xalqın nifrətini qazanıblar? İndii də dünyanı ağuşuna alan koronavirusla mübarizə zamanında. Əlbəttə ki, indi xarici qüvvələrin Bakıdakı təmsilçisi Ə.Kərimli kimi avantürist və satqının bu barədə düşünməsi, nəticə çıxarması nə ona sərf etmir, nə də düşünməyə başı. Ona sərf edən budur ki, dövlət öz təməllərini möhkəmləndirməkdən ötrü xalqın marağına cavab verən qanun layihələri hazırlasın, bunlar da həmin layihələr ətrafında varlığını sübut etməyə çalışsınlar.

Ancaq əbəs yerə Əli Kərimli özünü yorur. Çünki xəmiri satqınçılıqla yoğrulan Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirməyə cəhd etdikləri informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür.

Ə.Kərimli həmişə olduğu kimi, bu gün də daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürür. Elə bu günlərdə istər neftin qiymətinin aşağı düşməsi ilə bağlı, istərsə də koronavirusla mübarizədə "evdə qal"la bağlı sosial şəbəkələrdə etdiyi çağırışlar. Bax, budur Ə.Kərimlinin əsl siması - uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə satqınçılığını nümayiş etdirir. Çünki Ə.Kərimli həmişə anti-Azərbaycan qüvvələrin dəyirmanına su töküb.

### Siyavuş Novruzov: "Bunlar iqtidara müxalifət deyil, bunlar xalqa, dövlətçiliyə müxalifətdir"

YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov dövlətin pandemiyaya qarşı apardığı mübarizəyə müxalifətin hay-həşir salmasının onların satqın və xəyanət yolu tutması ilə əlaqələndirib: "Xaricdə oturub Azərbaycan əleyhinə iş aparan adamlar var. Biz konkret olaraq adlar deməliyik, onları ifşa etməliyik. ABŞ-da oturan Sevinc Osmanqızı, Avropada oturan Qənimət Zahit Avropada deyir ki, Azərbaycanda koronavirusa qarşı mübarizə aparılmır. Bəs ölkəmizdə bu qədər işlər görülür, karantin rejimi tətbiq olunur. Bu işləri kim görür?".



O qeyd edib ki, həmin insanlar özləri xaricdə evdə oturub çölə çıxa bilmirlər, hüquq-mühafizə orqanlarının tələblərinə ikiqat tabe olurlar: "Ancaq burda Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...bu kitmi satqın və xainlər, xalqa düşmən olanlar deyirlər ki, çölə çıxın. Bunlar istəyirlər ki, Azərbaycanda vəziyyət pis olsun və onlar sevinsinlər. Deyir "ilana ağı verən kərtənkələrdir". Bunlara da ağlı verən Ə.Kərimlidir. Utanmasalar deyərlər ki, koronavirusu Azərbaycan yaradıb. Biz bunları ifşa etməliyik ki, bunlar hardan maliyyələşdirilir. Bunlar iqtidara müxalifət deyil, bunlar xalqa, dövlətçiliyə müxalifətdir. Ona görə də belələrini hətta ölkənin həssas dönəmlərində Vətən, dövlət, xalq kimi əhəmiyyətli faktorlar qətiyyən maraqlandırmır. Xəyanətkarları, satqınları birləşdirən məqam da məhz budur".

S.Novruzovun sözlərinə görə hazırda Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək vermək əvəzinə, Əli Kərimli və onun rəhbərlik etdiyi AXCP, onun sosial mediadakı söyüş qrupları tam əksmövqe tutaraq, erməni dəyirmanına su tökməklə məşğuldurlar: "Əli Kərimli kimi ünsürlər əsl düşmən xislətini bir daha açıq şəkildə ortaya qoymuş olur. Və xalq ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərən Əli Kərimlini və ətrafındakıları etdiyi əməllərinə görə cəzasını almaq tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Əli Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir".

### Məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil

Bəli, həqiqətən də bu gün nə qədər ki, dünənki dələduzlar bu gün "haqdan" dəm vurub aranı qarışdırırlar, belələri tez bir zamanda cəzalandırılmalıdır. Çünki bu gün Azərbaycan bu gün dövlətçiliyin möhkəmləndirilməsi yolu ilə inamla irəliləyir, sosial- iqtisadi sahələrdə dinamik inkişaf təmin edilir, xalqın mənafeyi ciddi şəkildə qorunur, xalq-iqtidar birliyi dönməz xarakter alır, beynəlxalq aləmə inteqrasiya güclənir, qlobal layihələr uğurla gerçəkləşdirilir. Bütün bunlara görə narahatlıq hissi keçirən ermənipərəst dairələr əndişələnir, müxtəlif vasitələrlə ölkəmizə təzyiq etməyə çalışır, "beşinci kalon"a maliyyə dəstəyi göstərməklə, habelə digər şirnikləndirici metodlarla ayrı-ayrı siyasi qüvvələri ələ alır, dövləti zəiflətmək, Konstitusiya quruluşunu dəyişmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırlar. Şübhəsiz ki, belə bir yolla məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil. Çünki, dövlətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi gücsüz, kövrək vəziyyətdə deyil, həm siyasi, həm də iqtisadi cəhətdən güclənib, beynəlxalq dairələrdə nüfuz sahibinə çevrilib.

Əslində onlar söyüş ritorikasına meydan açmaqla mənəvi cəhətdən zəifliklərini, gücsüzlüklərini, əxlaqi baxımdan isə naqisliklərini nümayiş etdirirlər. Və xalqımız əmin olsunlar ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar.

**Rəfiqə HÜSEYNOVA**

---

**_Mənim az yaşım yoxdur. Rəhmətlik Hüseyn Arifin təbirincə desək, altmışımı yelə vermişəm. Və bu altmış ilin tən yarısını Sovet dönəmində, Kommunist rejimində yaşamışam._**

# Köhnə bazar, köhnə nırx!

Otuz ilə yaxındır ki, müstəqil, demokratik Azərbaycanda yaşayıram. Bu otuz ildə Azərbaycanda hər şey dəyişib. İnsanların dünyagörüşündən, mənəvi dəyərlərdən tutmuş ölkənin simasına, insanlarım yaşam tərzinə, sosial-məişət şəraitinə qədər bütün sahələrdə fundamental dəuişiklərin şahidi olmuşam. Hətta müstəqilliyin ilk illərində beynəlxalq aləmdə iki-üç dövlət tərəfindən haqqımıza dəstək ala bilirdiksə, indi, maşallah, nə az, nə çox, yüz əlli beş dövlətin dəstəyilə BMT-nin Təhlükəsizlik Şurası kimi müqtədir bir quruma üzv seçilirik, təxminən o qədər də dövlətin səsini alıb Qoşulmama Hərakatına sədr seçilirik. Yatsaq yuxumuzda görəcəyimiz ən mötəbər yarışlara, tədbirlərə ev sahibliyi edirik.Xülasə, dəyişən çox şeylər var ki, hamısını sadalamağa nə vaxtımız var, nə də köşə imkanımız(Köşə - yəni köşə yazıdan söhbət gedir.

Belə yazının konkret yeri və hərf sayı olur axı!) Odur ki, dəyişənlərimizi sadalamağa burda son qoyub keçirəm dəyişməyənlərimizə. Yəni bu qədər dəyişmələrdən, yeniləşmələrdən kənarda qalan köhnə bazarın köhnə nırxçılarına. Axı atalarımız köhnə bazara təzə nırx qoymamağı tövsiyə edib. Day demiyib ki, bazar köhnədisə, elə nırxını da köhnə qaydada saxla və nə bazarı təzələ, nə də nırxı.! Bilirəm, indi oxucu məni qınayacaq ki, nədi axı o dəyişməyən ki, bu qədər uzadıram mövzunu.

Ona gərə dolayısı ilə yox, birbaşa gəlirəm mətləbin ortasına. Neçə gündür ki, sosial şəbəkələr bir onlayn "konfrans"dan yazılarla dolub. Adını "konfrans" qoyduqları bu internet savaşından çoxlarının xəbəri var. Orda Gültəkin kimləri necə ittiham və təhqir elədi, Cəmil, "Bu şəhərdə"kilər deməli, Brejnevvari necə yastı-yastı söz soxdu dostlarının ürəyinə, "Ziyalı" Eldəniz hansı formada"ziyalı" məsləhətləri verdi və sairə. Bunlardan hər kəsin xəbəri var. Amma çoxlarının xəbəri yoxdu ki, bu bıdbəxtlər düz otuz ildi belədilər, hələ də belə olaraq qalıblar. Yaxşı xatırlayıram, həm də təkcə mən yox, o zaman haqqında danışacağım Qurultayda iştrak edənlərin hamısı xatırlayır ki, Azərbaycan Xalq Cəbhəsinin Opera və Balet Teatrının binasında, 1991-ci iln yayında keçirdiyi qurultayda da elə həmin vəziyyət idi. Məsələn, Rəhim Qazıyev Fransadan bir Güney Azərbaycan əsilli xanımı gətirib çıxardı tribunaya. O da başladı ki, "Ay millət, bunlar (Əlini İsa Qəmbərə tərəf uzatdı) öğrəcdilər (Bağışlasın oxucular, bunu Haiti Borner adlanan həmin qadın dedi, mən sadəcə onun dediyini sizlərə çatdırıram). Bunnar gəlib Firensədə bizimlə görüşmellər, gedef erməni Ayrikyanla görüşellər...".

Sonra da İsanın tərəfdarları çıxdı tribunaya başladı Rəhimin qarasına ağızlarına gələni deməyə. Bayaq haqqında danışdığım onlayn "Konfrans"da da həmin səviyyənin dəyişmədiyinin şahidi oldum. Şahidi olmaqla həm çox pərişan oldum, həm də bir balaca sevindim. Pərişan oldum ona görə ki, nə qədər olmasa, bunlar da bizim millətdən sayılır.

Düzdü, çoxlarının bizim millətdən olmasına şəxsən mənim şübhəm var. Amma axı psportlarında bizdən olduqları yazılır. Bunların seyr edən dünya elə biləcək ki, biz elə o səviyyədə millətik. Sevindim ona görə ki, illərdi bunların 1990-cı illərin əvvəllərindəki dünyagörüşdən, səviyyədən bir addım da irəli getmədiklərini bar-bar bağırırıq, bəziləri buna irad bildirirdilər ki, yox, onlar da dəyişib, onlar da inkişaf ediblər. İndi kiminsə deməsinə ehtiyac qalmadı artıq. Özləri özlərinin hansı səviyyədə olduqlarını çılpaqlığı ilə nümayiş etdirdilər.Hər kəs də bizim dediklərimizin boş qazana vurulan çömçənin çıxardığı danqıltı deyil, gerçək notlar üzərində çalınam, həm milli, həm də beynəlmiləl hava olduğunu yəqin elədi. Mən dəfələrlə demişəm, yenə deyirəm, müxalifət meydanını inhisara alıb, yeni düşüncəli, dəyişən qüvvələri meydana buraxmayan arxiv qoxulu bu siyasət dəllallarının millətimizə və dövlətimizə vurduqları zərbə, torpaqlarımızı işğal edən düşmənin vurduğu zərbədən elə də ciddi fərqlənmir. Düşmən ərazimizə, Vətənimizə nüfuz edir, bunlar da milli-mənəvi




dəyərlərimizə! Odur ki, bu onlayn "konfrans" iştrakçılarına bir daha deməyi özümə borc bilirəm: Hamınız sözünüzün əvvəlində də, axırında da xalq, millət deyirsiniz.

Həqiqətən bu milləti, bu xalqı zərrə qədər sevirsinizsə, çəkilin yoldan, imkan verin gerçək, real müxalifət formalaşsın və konstruktiv siyasi mübarizənin əsası qoyulsun. Özünüz anlayın ki, siz hələ də təzə "bazar"a uyğunlaşa bilmirsiniz. Qırxında öyrənən gorunda çalar deyib atalarımız. Sizin qırxınız da çıxıb, altmışınız da. Amma hələ köhnə bazarda köhnə nırxla çabalayırsınız. Təzələnmək üçün xeyli illər keçməlidir.

Amma siz hələ təzələnməyə heç qərarlı da deyilsiniz. Deməli təzə bazarda sizə "piştaxta" olmayacaq. Olmayacaqsa, köhnə bazarınızı bağlayın, gedin istirahətə-flana. Çünki nırx çoxdan dəyişib və indiki alış-verişdə köhnə nırx sizi böyük, həm də çox böyük zərərə salar!..

**Təhmasib Novruzov**

# Eldəniz Quliyev istefa verdi və məlum oldu ki...

## *"İttihamlar silsiləsindən: "Söyüşün biri bir qəpik, söyürsünüz, ərsiz qadını da almısınız aranıza tərbiyəsizlik edirsiniz, əxlaq yoxdur"*

***"Milli Şura"nın koordinasiya şurasının üzvü Eldəniz Quliyevin facebook sosial şəbəkəsindəki səhifəsində adıçəkilən qurumdan istefa verməsini bəyan etməsinin ardınca, onun bu fikrinə yazılan rəylər də maraqdoğurucudur. Lakin həmin rəylərə gələnə qədər, istefanın səbəblərinin də nədən ibarət olmasını indidən aşkar etmək olar. Məsələ ondadır ki, E.Quliyev bir neçə gün öncə "Milli Şura"nın "zoom" iclasında iştirak edərkən, orada Gültəkin Hacıbəyli və Rafiq Manaflının timsalında, eləcə də AXCP sədri Əli Kərimli və qurumun sədri Cəmil Həsənlinin nəzərində kifayət qədər əxlaqsız davranışlara yol verildi, o cümlədən, düşərgənin digər cinahında olan Müsavat, REAL kimi partiyalar, eləcə də həmin partiyaların təmsilçiləri də bu və ya digər şəkillərdə hədəfə alındı, təhqirlərə yol verildi. Başqa tərəfdən, virtual iclas zamanı hətta Qənimət Zahidin "iclas canlı gedir" xəbərdarlığına belə məhəl qoyulmadı və sözdə "siyasət" toplantısı cinsi azlıqlara, hətta faşizmin banisi Hitlerin tərifinə qədər getdi-çıxdı.***

### Kimlər nə yazdı?

Lakin E.Quliyevin bu məsələdən sonra istefa verməsinin əsas səbəblərindən biri və birincisi "Milli Şura" rəhbərliyinin bütün bunlara etinasız yanaşması oldu. Daha dəqiq desək, C.Həsənlinin, Ə.Kərimlinin susqunluqları, yəni baş verənləri dəstəkləmələri nəticə etibarı ilə E.Quliyevin istefa qərarına təkan vermiş oldu. Bu baxımdan, istefa qərarına da müxtəlif prizmalardan yanaşılıb, onun istefasından təəssüflənənlər də, bunu dəstəkləyənlər də, ittiham edənlər də olub. O cümlədən, E.Quliyev qruplaşmasının tərəfdarları ilə Ə.Kərimlinin trolları arasında söz atışmaları müşahidə olunub. SİA olaraq, bəzi rəyləri (qrammatik söz düzülüşlərini və hərf səhvlərini düzəltmişik-R.R.) diqqətə çatdırırıq:

### "Pafosla, ironiya ilə, natiqlik qabiliyyəti ilə ancaq püflənmiş şarı havaya buraxa bilərsən"

Əbülfəz Novruz adlı müxalifətçi sözü Ə.Kərimliyə və C.həsənliyə ataraq, E.Quliyevin istefa qərarını dəstəklədiyini yazır: "Şprisin başını yuxarı qaldırıb havasını buraxmasan vurduğun iynənin xeyrindən çox fəsadları ola bilər. "Dərmanın" adını nə qoyursuz qoyun -"millət", "xalq", "hərəkat", "birlik" artıq millətin damarları vurulan havadan



qançır bağlayıb. Pafosla, ironiya ilə, natiqlik qabiliyyəti ilə ancaq püflənmiş şarı havaya buraxa bilərsən. Doğrusu sizdən bu addımı gözləyirdim, Eldəniz müəllim!..."

### "İfrat demokratları yerində oturtmaq lazım idi"

Farid Jabbarov nikli istifadəçi də E.Quliyevin istefasını dəstəkləməsə də, "Milli Şura"nın rəhbərliyinin saxta demokratlar olduğuna işarə edib: "Çox tələsik və səhv qərardır, təmkinli olmaq və bəzi ifrat demokratları yerinə oturtmaq lazım idi".

Rashad Mammadov nikli istifadəçi isə E.Quliyevin istefasına məsxərə ilə yanaşıb və ironik rəy yazıb: "Olsun, "Şura Hökuməti" böyük dəyər itirmədi. Nəvələrinlə vaxt keçir, son günlərini xoşbəxt yaşa, nə deyə bilərəm. Uzun ömür, can sağlığı və "po bolşe məxəbbəta..."

### "Eynilə Fuad Qəhrəmanlının başına gətirilən oyunu oynadılar sizə qarşı"

Sözügedəm məsələyə bilavasitə siyasi yöndən də yanaşmalar olub. Misal üçün, Zaur Cabbarov adlı istifadəçi E.Quliyevin istefasını AXCP-nin sədr müavinliyindən istefa vermiş Fuad Qəhrəmanlıyla eyniləşdirib, bunu dolayısı ilə Ə.Kərimlinin oyunu olduğuna eyham vurub, eyni zamanda G.Hacıbəylinin, R.Manaflının alət olaraq istifadə edildiyini iddia edib: "Eynilə Fuad Qəhrəmanlının başına gətirilən oyunu oynadılar sizə qarşı. Əfsuslar olsun ki, bəziləri də bu oyunun sürətlə icra olunmasında alət oldular".

### "Sonunda "Milli Şura"dan bir başıpapaqlı çıxdı"

Ruslan Hesenov isə "Milli Şura"da başıpapaqlıların qalmadığını yazaraq, dolayı yollarla AXCP sədri Ə.Kərimlini, sədr C.Həsənlini və başqalarını təhqir edib: "Halaldır sizə Eldəniz bəy. Sonunda bir nəfər başıpapaqlı çıxdı. Uğurlar."

Daha bir maraqlı rəy İlham Gadir adlı istifadəçidəndir. REAL partiyasının tərəfdarı olduğu görünən bu şəxs proqnozlarnın səhv çıxdığını etiraf edərək, əslində Cəmil Həsənlinin istefa verəcəyinə, yaxud qrupların birləşərək, onu buna məcbur edəcəyinə ümid etdiyini bildirib. "Uğurlar. Ancaq gözləyirdim birləşib professoru uzaqlaşdırasınız...", deyə o yazıb. Lakin REAL tərəfdarının cavabı dərhal Ə.Kərimli-C.Həsənli cütlüyünün trolu tərəfindən verilib. Iltizam Mamedov nikli istifadəçi yazıb: "Eldəniz bəyin getməsinə qətiyyən sevinmirəm əksinə lüzumsuz hesab edirəm mən siz realşüvənlərə deyirəm Cəmil bəyin getməsini görməyəcəksiniz"

### Rafiq Manaflıya ittiham: "Eldənizdən əvvəl sən istefa verməli idin"

E.Quliyevin istefasına "Milli Şura"nın virtual iclasın qalmaqalçılarından biri, Hitlerə dəstək sergiləyən VHP təmsilçisi Rafiq Manaflının da münasibəti və ona verilən cavabdır. "Çox tələsik qərardır" yazan Manaflıya cavab yazan Senan Mahmud bildirib: "Rafiq Manaflı, səndə üz vare, Eldənizdən əvvəl sən istefa verməli idin"

R.Manafı isə qarşı tərəfi diqqətli olmağa səsləyib: Öz sözünə diqqət elə. Bütün bu müzakirələrin səbəbi mən deyiləm".

Əli Kərimlinin trolundan Eldəniz Quliyevə: "Qayıdan da şərəfsizdir və istefa verirmiş kimi görüntü yaradıb amma hələ də o işini icra edən də şərəfsizdir"

Böyük ehtimalla Ə.Kərimli tərəfdarı olduğu görünən Ramillə Gazilova isə E.Quliyevə hədə belə gəlib: "Qayıdan da şərəfsizdir və istefa verirmiş kimi görüntü yaradıb amma hələ də o işini icra edən də şərəfsizdir".

Samir Mmm Mmm nikli istifadəçi isə yazır: "Bir iclasla darmadağın oldunuz. Çünki səmimiyyət yox idi. ... (etik səbəbdən ifadəni yazmırıq-R.R.) məclisi düzəltmisiniz, söyüşün biri bir qəpik. Söyürsünüz, ərsiz qadını da almısınız aranıza tərbiyəsizlik edirsiniz, əxlaq yoxdur".

Qənimət Zahid iclasın canlı yayımlandığını dediyi halda, Əli Kərimli və Gültəkin Hacıbəyli bunu "hakimiyyətin gibercinayətkarlığı" adlandırıb, özlərini rüsvat edirlər

Göründüyü kimi, bütün faktlar göz önündərir və bundan sonra E.Quliyevin istefasının səbəblərini açıqlayıb-açıqlamayacağına da ehtiyac yoxdur. Sadəcə daha bir məqam budur ki, "Milli Şura" və AXCP-nin iyrənclik saçan və ictimai rəydə ikrah hissi oyadan iclasının ardınca, hətta onun canlı şəkildə yayımlanmasına rəğmən, onlar öz şərlərini, böhtanlarını əksik etməyərək, bunu "hakimiyyətin kibercinayətkarlığı" adlandırırlar. Halbuki, Qənimət Zahid vəziyyət nəzarətdən çıxanda xəbərdarlıq etmişdi ki, "zoom" iclas canlı yayımdadır!

Necə deyərlər, siyasi həyasızlığın bariz sübutlarından biri də məhz belə sərsəm iddialardır ki, Ə.Kərimli, həminin onun rezerv çənəsi hesab edilən Gültəkin Hacıbəyli danışırlar...

***Rövşən RƏSULOV***

# "Korrupsiya cinayəti ölkəmizin iqtisadi, siyasi əsaslarına ciddi zərbə vurur"



"Ölkəmizdə korrupsiyaya qarşı aparılan mübarizənin daha da sərtləşdirilməsi bu sosial bəlanın yerli və mərkəzi hakimiyyət orqanlarında ayrı-ayrı vəzifə sahiblərinin dövlət vəsaitlərini təyinatından yayındırması, talaması və mənimsəməsi ilə bağlıdır. Bu cinayət əməlləri ölkəmizin iqtisadi, siyasi əsaslarına ciddi zərbə vurur, milli təhlükəsizliyimizi təhdid edir. Dövlət aparatını belə cinayətkarlardan təmizləmək üçün ölkə başçısı İlham Əliyevin nümayiş etdirdiyi möhkəm iradə göz qabağındadır". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mais Səfərli deyib.

Partiya sədri bildirib ki, Prezident bütün son çıxışlarında açıq mətnlə bəyan edir ki, dövlətin, xalqın malını mənimsəyən hər bir kəs ciddi cəzalandırılacaqdır: "Mayın 13-də dövlətimizin rəhbəri Kəlbəcər rayon icra hakimiyyətinin yeni təyin edilmiş başçısını videoformatda qəbul edərkən bir daha vurğuladı ki, kim tutulan dövlət məmurlarının acı həyatını yaşamaq istəmirsə, rüşvətdən, yalandan, talançılıqdan, korrupsiyadan uzaq durmalıdır.

### Düşünürəm ki, bu məsələdə siyasi partiyaların, vətəndaş cəmiyyəti institutlarının, geniş ictimaiyyətin

ölkə başçısına dəstək verməsi sevindirici haldır. Lakin hakimiyyətin digər qolları da bu istiqamətdə fəaliyyətlərini Prezidentin addımlarına uyğunlaşdırmalıdır. Bununla bağlı vətəndaşlarımızın Milli Məclisdən gözləntiləri daha böyükdür. Bildiyiniz kimi,bizim Ana Qanunumuz - Konstitusiyamıza görə, ölkəmizin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidentinin təqdimatı əsasında qanunvericilik hakimiyyəti tərəfindən təsdiq olunur.Bu mühüm Maliyyə Aktının icrasına nəzarət səlahiyyəti də Milli Məclisə məxsusdur. Bu məqsədlərlə Milli Məclisə hesabat verən büdcə-maliyyə nəzarət orqanı olan Hesablama Palatası yaradılmışdır. Ali maliyyə nəzarəti həyata keçirən Hesablama Palatası büdcə vəsaitlərinin məqsədyönlü və təyinatı üzrə xərclənməsini hər an nəzarətdə saxlamalı və bundan ötrü, qanunla müəyyən edilmiş qaydada audit və yoxlamalar aparmalı və Milli Məclisə hesabat verməlidir.

Korrupsiya ilə mübarizə kontekstində son aylarda yerli və mərkəzi hakimiyyət orqanlarında DTX tərəfindən bir sıra yüksək vəzifəli dövlət məmurlarının, o cümlədən, 5 rayonun icra hakimiyyəti başçılarının, Mədəniyyət nazirinin müavininin saxlanılması və barələrində həbs qəti-imkan tədbiri seçilməsi göstərdi ki, onların törətdikləri cinayətlər, əsasən,büdcə vəsaitlərinin talanması ilə bağlıdır. Bu isə Hesablama Palatasının fəaliyyətinin ciddi şəkildə gücləndirilməsini, Konstitusiya ilə bu orqana verilmiş səlahiyyətlərin daha dolğun yerinə yetirilməsini gündəmə gətirir".

***Ceyhun Rasimoğlu***

## Bakıda qadına qarşı quldurluq edən şəxs saxlanıldı



Quldurluğu törətməkdə şübhəli bilinən Şamaxı rayon sakini N.Manafov saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini A.Hüseynova mayın 14-də Sabunçu qəsəbəsi ərazisində bir nəfərin onun ağzını əli ilə tutaraq pul tələb etdiyini və barmağına xəsarət yetirərək boynundakı 1800 manat dəyərində olan brilyant qaşlı klonu apardığını bildirib. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Şamaxı rayon sakini N.Manafov polis əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb. Sabunçu RPİ tərəfindən araşdırma aparılır.

# Azərbaycan mədəniyyətində ümumbəşəri ideyalar və ənənələr

***Dünya xalqlarının mədəniyyətləri əsrlər boyu qarşılıqlı əlaqə və təsir əsasında formalaşmış və inkişaf etmişdir. Hər hansı bir xalqın sırf milli özünəməxsus mədəniyyəti nisbi xarakter daşıyır. Qeyd edildiyi kimi hər bir mədəniyyətdə milli və ümumbəşəri dəyərlər vəhdət təşkil edir. Bu baxımdan Azərbaycan mədəniyyəti də istisna deyildir.***

Azərbaycan mədəniyyətinə Şərqlə yanaşı Qərbin də ideya və dəyərlərinin təsiri olmuş, indi də bu proses davam etməkdədir. Qarşılıqlı təsirsiz mədəniyyətin inkişafından söhbət gedə bilməz. Ümumdünya mədəni əlaqələr şəbəkəsində ayrılan ölkələr durğunluğa və tənəzzülə məhkumdurlar. Hər bir milli mədəniyyət üçün başqa mədəniyyətlə tanışlıq geniş inkişaf imkanları açır. Başqa xalqların mədəni nailiyyətləri - maddi istehsal məhsulları və texnologiyası, ixtira və kəşflər, bədii və estetik dəyərlər fəlsəfi, əxlaqi, hüquqi, siyasi ideyalar - milli mədəniyyət tərəfindən mənimsənilir və onun xüsusi sərvətinə çevrilir

Şübhəsiz ki, ümumdünya ideya və ənənələri dedikdə həm Şərq və Qərbin, həm Şimal və Cənubun, Avropa və Asiyanın mədəni-mənəvi dəyərləri nəzərdə tutulur.

Qədim dövrlərdən ümumtürk mədəniyyətinin tərkib hissəsi kimi təşəkkül tapan, VII əsrdən türk-müsəlman mədəniyyətinə çevrilən, XIX əsrdə əsasən Şərq ideya və ənənələrilə sıx bağlı olan Azərbaycan mədəniyyəti XIX əsrdə parçalandı, Şimali Azərbaycan mədəniyyəti əsasən Qərb mədəniyyətinin təsirilə, Cənubi Azərbaycan isə Şərq mədəniyyəti kimi inkişaf etdi. Rusiya işğalı dövründəki Azərbaycan mədəniyyəti Orta Şərq və Anadolu türk kimliyindən qoparılmasına, Türküstan (MərkəziAsiya-Şərq türkülüyü) və Anado-

Şərq və Qərb dəyərlər sisteminin birgə mənimsənilməsi və ortaq məxrəcə gətirilməsi sayəsində qabaqcıl mövqe tutur. Tarixən bir Şərq ölkəsi olaraq inkişaf edən və son min il ərzində islam mədəni-mənəvi dəyərlərini mənimsəmiş və özününküləşdirmiş olan Şimali Azərbaycan XIX əsrdən başlayaraq Rusiya imperiyasının tərkibində yeni mədəni-mənəvi dəyərlər sistemi ilə sıx əlaqəyə girmək və onları bəzən icbari yolla mənimsəmək məcburiyyətində qalmışdır. Rusiya vasitəsilə qabaqcıl Avropa ictimai-siyasi fikrinin və maarifçilik ideyalarının Azərbaycana keçməsi Şərq və Qərb dəyərlər sisteminin bu ölkədə qovuşması üçün münbit şərait yaratmışdır.

Hələ XVIII əsrdə Qərbdə təşəkkül tapan bu ideya və dəyərlər ümumdünya mədəniyyət tarixində xüsusi bir mərhələ oldu. Dünyəvi və praktiki maraqlara, elmə və təcrübəyə əsaslanan dəyərlər, azadlıq, bərabərlik, qardaşlıq humanizm ideyaları dünya mədəniyyətinin inkişafına təsir edən güclü amil oldu. Yeni keyfiyyətli bu dəyərlər insan azadlığına və hüquq bərabərliyinə nail olmaq kimi çox böyük və şərfəli vəzifələrin həllini öz qarşısına məqsəd qoymuşdu.

Hələ orta əsrlərdən başlayaraq Avropanın bütün tərəqqipərvər mütəfəkkirlərinin, sonralar baş vermiş demokratik inqilabların əsas məqsədi mütərəqqi ideyaların - təbii insan hüquqları və azadlıqları-

bu çoxəsrlik süstlük və üzüntü tarixi yenidən start götürməyə məcbur edəcəkdir.

Dünyanın ən ənənəvi özünəməxsus mədəniyyətləri belə Qərbin liberal-demokratik dəyərlərinin təsirindən yan qaça bilməmişdir. Bu baxımdan əsrlər boyu türk-müsəlman mədəniyyəti kimi formalaşan və inkişaf edən Azərbaycan mədəniyyəti XIX əsrdə Rusiya vasitəsilə qərbləşməyə, avropalaşmağa, müasirliyə qovuşdu.

Nəticədə türk, ərəb, Qafqaz, rus Avropa, Iran mədəniyyətinin, bir sözlə Qərblə Şərqin vəhdətindən, sintezindən ibarət Azərbaycan türk-müsəlman milli mədəniyyəti daha da inkişaf etdi, zənginləşdi. Bu təsirlərin tarixi orta əsrlərə gedib çıxır. Orta əsrlərdə Azərbaycanda mədəniyyət sahəsində qarşılıqlı əlaqə və əməkdaşlığın möhkəmlənməsində Azərbaycanla Orta və Kiçik Asiya, Iran, Suriya, Misir və Kiçik Asiya, Zaqafqaziya, Rusiya və Uzaq Şərqlə aparılan iqtisadi əlaqələr xüsusi rol oynayırdı. Azərbaycan Avropa və Yaxın Şərq arasındakı böyük karvan yolunun üstündə idi.

Məhz iqtisadi əlaqələr mədəni qarşılıqlı təsirlərə şərait yaradan bir amil olmuşdur. Azərbaycanın yerləşdiyi əlverişli, geosiyasi coğrafi mövqe, dünyanın müxtəlif xalqlarının mənəvi dəyərlərini əxz etməyə, öz mədəniyyətini zənginləşdirməyə imkan yaratmışdır. Azərbaycanın yerləşdiyi Qərb və




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

lu (Qərb Türkülüyü), Volqa-Ural (Şimal türkülüyü), Iran və Iraq türkləri arasında etnik, coğrafi və mədəni bütünləşdirici roluna (qızıl körpü) son verilməsinə rəğmən, sosio-mədəni həyatın bütün sahələrində ruslaşdırma siyasətinə məruz qaldığına baxmayaraq, millətləşmə və çağdaşlaşma prosesinə qədəm qoymuşdur.

Ümumdünya mədəni prosesdə Qərb dəyərlərinin nüfuzu artdı və özünün liberal demokratik dəyərlərilə bəşər həyatına güclü sirayət etdi. Fransa inqilabından sonra maarifçilik - mədəni ideyalar, sekulyarizm, humanizm, demokratiya, millətçilik, insan hüquq və azadlıqları ideyaları bütün Avropa və dünyada sürətlə yayıldı.

Feodalizm əvəzinə yaranan yeni burjua, kapitalizm münasibətləri, bütün ölkələri, o cümlədən, Rusiya vasitəsilə Şimali Azərbaycanı da öz ağuşuna aldı. Feodal ənənələri və Slavyan kimliyinə əsaslanan Rusiya müasir, sənayeləşmiş, kapitalist Avropa Rusiyasına çevrildi ki, o da öz növbəsində Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatına təsir etdi.Rasional və mənəvi dəyərlərin nisbəti baxımından Azərbaycan

nın bütün dünyada bərqərar olmasını təmin etmək idi.

Qərbdə fərdiyyəçilik, insan ləyaqətinin qiymətləndirilməsi, onun yüksək humanist əxlaq daşıyıcısı hesab edilməsi, insanın özünü reallaşdırmaq hüququ, hüquqi dövlət və vətəndaş cəmiyyəti, qanunun aliliyi, qanunlar çərçivəsində azad, ədalətli cəmiyyətin təşəkkülü, insan maraqlarının təbii hapmoniyası, vətəndaş həmrəyliyi, tolerantlıq, milli azlıqların dilinin, dininin, adət-ənənələrinin, mədəniyyətlərinin qorunması mütərəqqi ideya və dəyərlərdir. XX əsrin sonlarında liberal dəyərlər keçmiş postsosialist ölkələrinə də yayıldı. Qərbin, qərbçiliyin qələbəsi ona görə təsirlidir ki, liberalizmin yaşamağa qəbul heç bir alternativi qalmamışdır. Bununla da Qərb liberal-demokratik dəyərlərinin "universal xarakter alması" başa çatmış oldu. Bölünmüş dünya bütövləşdi, bir-birinə qovuşdu, siyasi-iqtisadi, sosial, mədəni-mənəvi vəhdət bərpa edildi. Tarixdən sonrakı dünyanın labüdlüyünü qəbul etməklə, mən Avropada 1945-ci ildən sonra özünün Şimali Atlantika və Asiya qolları ilə yaranmış sivilizasiyadan ötrü bu bədbin notlar nikbinliklə sona çatır,

Şərqin kəsişdiyi geosiyasi mövqe tarixən Azərbaycan xalqının milli təfəkkürünün formalaşmasında, onun siyasi, iqtisadi, mədəni həyatında mühüm əhəmiyyətə malik olmuşdur. Bir Şərq məkanı olmaqla Azərbaycan ictimai həyatı və mədəniyyəti Qərbin mütərəqqi ideya və dəyərlərini özündə yaşatmağa çalışmışdır.

Bu proses bir tərəfdən Qərbin ideya və dəyərlərinin mənimsənilməsi və milli mədəniyyətimizin zənginləşməsi, digər tərəfdən milli-mədəni dəyərlərimizi Qərbə aşılamaq və təqdim etmək kimi özünü göstərmişdir. XIX-XX əsrlərdə müstəqilliyə qədər bir çox elm və mədəniyyət xadimimiz rus mədəniyyəti və rus dili vasitəsilə Qərbin ideoloji çərçivəyə salınmış müəyyən ideyalarını mənimsəməklə yanaşı, yüksək təfəkkürləri, Qərb və Şərq dillərinə dərindən yiyələnmələri və bir fikir adamı olaraq milli şüurun oyanışı və yüksəlişi üçün hiss etdikləri tarixi məsuliyyətlə müxtəlif qadağa və ideoloji buxovlardan azad olaraq, Azərbaycan mədəniyyətini, ictimai fikrini müasir dünya mədəniyyəti və düşüncə və səviyyəsi ilə qovuşdurmağa çalışmışlar. XXI əsrdə qloballaşma,

siyasi, iqtisadi, mədəni inteqrasiya ümumdünya prosesinə çevrilmişdir.

Dünya xalqları təkcə Qərbi ideya, dəyərləri vəənənələrini deyil, bir-birinin mədəniyyətlərini tanıyıb mənimsəməklə, qlobal mədəni inteqrasiyanı və qlobal dialoqu möhkəmləndirmək olar. Bu mənada Azərbaycan tədqiqatçısı, fəlsəfə elmləri doktoru R.Aslanovanın fikirləri maraq doğurur: "Avropada mədəni müxtəlifliyin və mənəvi irsin qorunması dialoqun məzmununu təşkil edir. Istər Avropa Birliyinə, Avropa Şurasına üzv olan ölkələr, istərsə də bütün dünya xalqları öz mədəniyyəti və ədəbiyyatlarını bu dialoqda səsləndirməlidir. Son nəticədə Avropanın mədəniyyətlərarası dialoq məkanı kimi bərqərar olmalıdır".

Müəllifin təkcə Qərbə, Avropaya üstünlük verməməsilə razılaşmaq olar. O, haqlı olaraq xalqların qarşılıqlı təsirini, mədəniyyətlərarası dialoqu yüksək qiymətləndirir. Lakin son məqamda inteqrasiyanın ən qədim "modeli" kimi "Avropa modelinin", "Vahid Avropa" ideyasının həyatiliyi və yaşarlığından bəhs edir. "Avropa ruhunun", Avropa-mədəni dəyərlərinin bəzi daşıyıcılarının avropa sentrizm mövqeyi elə Avropa tədqiqatçıları tərəfindən də kəskin tənqid edilir. Qərb tədqiqatçısı Temi Braq "Avropa Roma yolu" əsərində yazır: "Avropa ruhu", yaxud "Ruhun Avropası" o yerdədir ki, orada insanların əziz saydığı dəyərlərə hörmət edirlər, əxlaqi-etik normalara riayət edirlər, Avropa ruhu... ən yaxşı təhsil imkanlarının verildiyi... sülh nümunələrinin yazıldığı məkanlardandır.

Şübhəsiz ki, burada söhbət qarşılıqlı əlaqələrə, qarşılıqlı hörmətə, əmin-amanlığa, sülhə tolerantlığa və dialoqa əsaslanan mədəni inteqrasiyadan gedir.

Müasir Azərbaycanın universal inteqrasiya modeli və milli praktikasında qarşılıqlı təsir, qarşılıqlı mənimsəmə və qarşılıqlı zənginləşmə prinsipləri əsas yer tutur. Azərbaycan iyirmi birinci əsrə Avropa ailəsi kimi qədəm qoymuşdur. Mədəniyyətimizin üfüqlərini bu geniş məkana qədər yaymaq, onu tanıtmaq, qarşılıqlı bəhrələnmək və zənginləşmək üçün dövlətimiz və cəmiyyətimiz qarşısında mühüm vəzifələr durur.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

16 may

Son səhifə

## "Qalatasaray"da Koronavirus ŞOKU: Məşqlər dayandırıldı




*"Qalatasaray"da növbəti dəfə koronavirusa yoluxma faktı qeydə alınıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Bütün heyət üzvlərindən və işçilərdən götürülən testlər nəticəsində klubun bir əməkdaşında koronavirus aşkarlanıb.*

Koronavirus testi müsbət çıxan şəxsin adı açıqlanmayıb və karantinə alınıb. Komandanın məşqləri isə 6 günlük dayandırılıb. Qeyd edək ki, "Qalatasaray"da daha əvvəl baş məşqçi Fatih Terim, klubun vitse-prezidenti Abdurrahim Albayrak və klub prezidentinin köməkçisi Yusuf Günay koronavirusa yoluxmuş, daha sonra isə sağalmışdı.

## Qidalar nə qədər vaxta həzm olunur?



***Diyetoloqlar qida qəbulu ilə meyvə qəbulu arasında həmişə 2-4 saat fasilə verilməsini məsləhət görürlər. AZƏRTAC "mail.ru" saytına istinadla xəbər verir ki, burada məsələ heç də onların daha görə uyğunluğunda yox, həzm müddətinin müxtəlifliyindədir. Mədə-bağırsaq sistemi qarışıq qidaların öhdəsindən çətinliklə gəlir.***

Qarışıq qidalar mədədə bərkiyir, turşumağa və qıcqırmağa başlayır, qarında narahatlığa və köpə səbəb olur. Nəticədə tədricən orqanizmdə sağlamlığa mənfi təsir edən şlaklar və toksinlər yığılır.

Xoşagəlməz hallarla üzləşməmək üçün xörəklərin hazırlanması zamanı təxminən eyni vaxtda həzm olan məhsullardan istifadə etmək lazımdır.

Su birbaşa bağırsağa daxil olur, tərəvəz bulyonu 15-20 dəqiqəyə, meyvə suyu 15-20 dəqiqəyə, giləmeyvə 20 dəqiqəyə, qreypfrut, portağal və üzüm 30 dəqiqəyə, çiy tərəvəzlər və yağsız salatlar 30-40 dəqiqə, armud, alma, albalı və şaftalı 40 dəqiqəyə, kələm, qarğıdalı, qabaq və yumurta 45 dəqiqəyə, cəfəri və yerkökü 1 saata qədər, balıq 1 saata, nişasta tərkibli tərəvəzlər 1,5-2 saata, paxlalı bitkilər və sıyıq 2 saata, süd məhsulları 2 saata, quş əti 2,5-3 saata, günəbaxan, balqabaq və fındıq 3 saata, quzu və mal əti 4 saata həzm olur.

## Diqqət: Kondisionerlərdə koronavirus təhlükəsi!

Ekologiya Laboratoriyasının direktoru Anton Yastrebtsev kondisionerlərdən səhv istifadənin sağlamlığa zərər verdiyini deyib.



Rusiya mətbuatı xəbər verir ki, ekoloq uzun müddət istifadə olunmayan kondisionerlərin filtrlərində çox sayda mikroorqanizm toplandığını deyib. Kondisionerlər yayda ilk dəfə qoşulduğu zaman çox sayda mikroorqanizmlər çölə atılır və bu "ventilyasiya sindromu" adlanır.

"Mikroorqanizmlər üçün kondisionerlər əlverişli qidalandırıcı mühitdir, çünki tozlar, hissəciklər, polen və bitki toxumları orada yerləşirlər. Belə bir otaq havası insanda allergiya və xroniki xəstəliklərin kəskinləşməsi də daxil olmaqla, müxtəlif mənfi reaksiyalara səbəb olur. Kondisioner ilk dəfə işə salınmazdan əvvəl filtr sistemi daxil olmaqla təmizlənməlidir və yuyulmalıdır", - deyə ekspert qeyd edib.

Ekoloq bildirib ki, bununla əlaqədar müxtəlif şirkətlər və xidmətlər məşğul olur. Adi kondisionerləri isə mağazalarda satılan xüsusi məhsullardan istifadə edərək təmizləyə bilərsiniz. Yastrebtsev əlavə edib ki, bu, avtomobil kondisionerlərinə də aiddir. Avtomobillərdə kabin filtrlərini də dəyişdirmək lazımdır./publika.az

## PSJ Tomas Tuhellə yola davam edəcək



PSJ baş məşqçisi Tomas Tuhellə əməkdaşlığa davam etmək qərarına gəlib. Qol.az Fransa mətbuatına istinadən xəbər verir ki, klub rəhbərliyinin komandanın Çempionlar Liqasının `1/8 finaldakı çıxışından razı qaldığı bildirilib. Bundan başqa, 46 yaşlı mütəxəssisin klubda saxlanılması qərarına koronavirus səbəbindən yaranmış böhran da təsir edib. Paris təmsilçisinin Tuhel istefaya göndəriləcəyi təqdirdə, ona 10 milyon avro təzminat ödəməyə hazır olmadığı vurğulanıb.

Buna görə klubun idman direktoru Leonardonun Massimiliano Allegri və ya Simone İnzagini PSJ-yə baş məşqçi vəzifəsinə gətirmək fikrindən daşındığı bildirilib.

## Məşhur Hollivud ulduzundan qeyri-adi çağırış: geyim almayın...



Məşhur Hollivud ulduzu Ceyn Fonda insanlara geyim almamaqla bağlı çağırış edib. Bu barədə "Star News" xəbər yayıb. Bildirilir ki, məşhur aktrisa özünü nümunə göstərərək, səkkiz aydır özünə yeni geyim almadığını deyib. Buna sübut kimi o, 2020-ci ilin fevral ayında keçirilmiş "Oskar" mükafatlandırma mərasiminə 2014-cü ildə "qırmızı xalı"ya çıxdığı geyimlə getdiyini xatırladıb. C.Fonda çağırışını ekologiyanın çirklənməsi ilə əlaqələndirib. Aktrisa istehsal zamanı atmosferə metan, azot-dioksid, karbon-dioksid qazlarının atıldığını deyib.

## Bakı sakininin içərisində noutbuk olan çantasını oğurlayan şəxs yaxalanıb



Paytaxtda və Ağstafada oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xətai Rayon Polis İdarəsinin 36-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 19-da paytaxt sakini S.Əliyevin içərisində 2 min manat dəyərində noutbuk, qol saatı, kitablar və iki yaddaş kartı olan çantasını oğurlamaqda şübhəli bilinən S.Rüstəmov yaxalanıb.

Mayın 13-də Ağstafa rayonu ərazisindəki mağazaların birindən 1500 manat və 1200 ABŞ dolları məbləğində pul, habelə altı ədəd mobil telefon oğurlamaqda şübhəli bilinən Ü.Cəlilov isə Ağstafa Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktlarla bağlı araşdırmalar aparılır.

## Hövsanda "VAZ-21014" avtomobilinin vurduğu piyada ölüb




Suraxanı rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Hövsan qəsəbəsi ərazisində yolu keçən 50-55 yaşlı kişi Bakı şəhər sakini Ş.Qasımlının idarə etdiyi "VAZ-21014" markalı avtomobillə vurulub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Suraxanı Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600